*Nailəxanım İsayeva*

# *XOŞBƏXTLİK GÖYDƏN DÜŞMÜR...*

**Xəzər Universiteti Nəşriyyatı**

**Bakı – 2023**

©Xəzər Universiteti Nəşriyyati, 2023, May
Bütün hüquqlar qorunur.

Redaktor: İsaxan İsaxanlı

Tərtibçilər: Afaq Qəmbərova
Hamlet İsaxanlı

Kompüter işi: Nərminə Qasımova
Rəssam: Rafiq Mirəbdülrəhimov

Xoşbəxtlik göydən düşmür... 170 səh.
Bakı, Xəzər Universiteti Nəşriyyatı, 2023

ISBN 978-9952-20-159-8

1. Nailəxanım İsayeva. 2. Mən xoşbəxtəm.
3. Dünya Məktəbi. 4. Xəzər Universiteti.
5. İnciçiçəyi. 6. Məktublar.

DC22-894.361'8



*... Mən, təbii ki, xoşbəxtəm. Əgər mən yaşayıramsa, bu gözəllikləri görə bilirəmsə, bir iş görüb, nələrəsə nail oluramsa, insanları xoşbəxt edə bilirəmsə, bu mənə xoşbəxtlik gətirir.*

*Təbiəti, dağları, dənizi görəndə sevinirsənsə, bu xoşbəxtlikdir ...*

*Musiqini dinləyəndə sevinirsən, dünyana daxil edirsən, onunla yaşayırsan, bunun özü xoşbəxtlikdir.*

*Sağlamsan, hər gün ayaq üstəsən, hər günlə yaşayırsan, xoşbəxtlikdir.*

*Mənim üçün xoşbəxtlikdir bu!*



# İçindəkilər


Giriş ........................................................................................9

**Birinci fəsil**

**MƏN XOŞBƏXTƏM ....................................................10**

Ana qucağı ən isti, ən sevimli qucaqdır…................................11

Sevgiylə böyüyən uşaq ...........................................................17

Sevmək nə deməkdir ee, dəli-divanə olmaq?!.........................20

Məktəblər... Çətinliklər...........................................................21

O sari simlərə toxunmuruq… ..................................................25

Bir az qəmlənmək və bir az dəmlənmək üçün….....................27

Sən məni məst eyləyibsən, İnciçiçəyi! ....................................29

İki mahnı, iki müğənni ............................................................34

Gedim lalələrə baxım... ...........................................................35

İnsan bəzən istəyir ki, tək qalsın..............................................38

Şeir mənə çox təsir etdi, qürurlandım......................................39

Mahnılar, musiqilər məni yaşadır…........................................44

Çətinliklər mənə xoş idi….......................................................47

Özümü xoşbəxt hiss edərdim...................................................47

O günləri unuda bilmirəm........................................................52

Gözəl dünyada yaşamaq eşqi...................................................56

Hiss canına hopmuşdu….........................................................58

İnsanları sevməmək olarmı?!...................................................62
Doğma vətəndən uzaqda uzun müddət yaşaya bilmərəm.........66
Xəzərdən Dünyaya gedən yolda..............................................68
Xoşbəxtəm...............................................................................71
İnciçiçəyi uşaqlıqdan qalan bir duyğudur.................................73
O günləri unuda bilmərəm........................................................76
Qayğıkeş mələyə notlar… .......................................................78

**İkinci fəsil**

**NAİLƏXANIMIN MƏKTUBLARI HAQQINDA .............82**

Sənə deməmişdimmi saçlarını mənim üçün saxla?! ................86
1-ci məktub
Əllərimi yuxarı qaldırıb yağışa sevinəydim .............................88
2-ci məktub
Tez gəl, sənsiz çox darıxıram ...................................................91
3-cü məktub
Özünə qulaq as, çox ora-bura qaçma........................................94
4-cü məktub
Deyirəm kaş Hamlet burada olaydı ..........................................98
5-ci məktub
Arada-bir gözüm dolur, ağlamağım gəlir ...............................104
6-cı məktub
Məndən yazmaq, səndən almaq.............................................107

7-ci məktub
Hər şeydən əvvəl sənin can sağlığındır ...................................111
8-ci məktub
Sən gedən gündən başladıq səndən ötəri darıxmağa ..............117
9-cu məktub
Sovet ittifaqını dağıtdıq, indi müstəqil olmuşuq ....................122
10-cu məktub
Allah heç kəsin evini kişisiz qoymasın....................................126
11-ci məktub
Sən çox şən və ağıllı uşaq oldun.............................................129
12-ci məktub

**Üçüncü fəsil**
**BU DA BİR HƏYATDI.....................................................132**

Dünyanı dəyişək ......................................................................133
Gənclərin özünü düşündürək ....................................................134
Yaxşı məktəb nədir? ................................................................137
Sevgi dolu alim və pedaqoq......................................................139
"Dünya" dərgisi dünyaya gəlir ................................................142
Gələcək sizsiniz .......................................................................145
İlk qaranquşlar .........................................................................147
Gözəl gələcəyə doğru ..............................................................148
Kövrəlirəm...............................................................................150

Gözümüzün qabağında böyüdülər.........................................151
Unutmayın haa məni...........................................................152
Şagirdlərin hamısını sevgi ilə qarşılayıb, sevgi ilə
yola salırıq.......................................................................153
Özünüzə dəyər verin..........................................................158
Məktəb: sevinc və qayğılar................................................159
Xoş mühit də qayğıya möhtacdır.........................................160

**Əlavələr...........................................................................163**

1.Nailə Xanım İsayeva (Qısa həyat tarixçəsi)...................164
2.Nailə Xanım İsayevanın xatirəsinə.................................168

***"O, həyat eşqi və məlahətlə dolu idi."***

***Kathryn Noori***

# *Giriş*

*(Tərtibçilərdən)*

*Nailəxanımın irsi böyükdür – XƏZƏR Universiteti, DÜNYA Məktəbi, ailə, musiqi, bir sözlə böyük əməlləri... Söhbətləri, çıxışları, qeydləri, məktubları...*

*Çox çıxış etməyi, çıxış zamanı çox danışmağı sevmirdi. Nailə xanımın bütün çıxışlarını, gözəl, içdən gələn söhbətlərini tam toplamaq, təəssüf ki, mümkün olmadı. Onun həyat, musiqi, ədəbiyyat, poeziya, insanlıq, təhsil, sevgi, həsrət mövzularında, ümumiyyətlə, daxili aləm və ətraf haqqında söhbətləri yazıya alınmayıb. Əlimizdə öz əli ilə yazdığı qeydləri, bəzi məktubları, cüzi hissə səs yazıları qalıb. Səs yazılarını kağızlara endirdik, çıxışlarını, məktublarını və qeydlərini toplayaraq kitab halına saldıq. Onun təhkiyə üslubuna toxunmadıq, şirin ləhcə ilə müdrikcəsinə keçən mənalı bir ömrün hekayətini necə danışmışdısa, olduğu kimi sizlərə təqdim edirik...*

*Kitabın 1-ci və 3-cü fəsilləri Afaq Qəmbərova, 2-ci fəsli Professor Hamlet İsaxanlı tərəfindən hazırlanmış, tam mətnə hər iki tərtibçi göz gəzdirmişdir.*

# Birinci fəsil



# MƏN XOŞBƏXTƏM

## Ana qucağı ən isti, ən sevimli qucaqdır…

Ailənin sonbeşiyi olmuşam. Böyük qardaşımla aramızda 20 yaş fərq vardı. Valideynlərimin yaşlı vaxtında doğulmuşam. Qardaşımdan sonra iki bacım olub. Daha sonra mən doğulmuşam. Anam düşünüb ki, bir övladı da olsun və qocalanda ona baxsın, həyatdan köçəndə onu dəfn eləsin. O, necə düşünürdüsə, elə də oldu. Anam, atam, qardaşım və bacılarım rəhmətə getdi, bircə mən qaldım.

Atamla anam sovet dövrünün insanları idilər, çox çalışqan adamlardı. Atam İsmayıl Əsgərli Qubalı idi, həmişə orada yaşayıb və işləyib. Qubada əsasən nənəm baxardı ona. Biz də tez-tez gedib-gəlirdik. Həm Bakıda, həm də Qubada evimiz vardı.

Atam orada hardasa, 40 il Maliyyə şöbəsinin müdiri vəzifəsində çalışıb. Quba, Qusar, Xaçmaz və ətraf kəndlərin maliyyə işləri atama baxırdı. Çox təmiz və düzgün bir insan idi. Heç kəs inanmırdı, sovet dövrü idi, hamı düşünürdü ki, o, ən varlı adam olmalıdır, maliyyə işində idi axı. Amma çox qanun sevən, saf insan idi. Əlbəttə, atam da, anam da işləmişlər, heç vaxt ehtiyac içində olmamışıq, normal yaşamışıq.

Anam Bilqeyis köhnə “revolyusioner” (inqilabçı) idi, sovet hökümətini quran qadınlardan biri olub, qadınlar ara-



***Valdeynlər:***
***İsmayıl və Bilqeyis Əsgərli***

sında böyük işlər aparıb, çadraları çıxarmaq, savadsızlığı aradan qaldırmaq, işləmək, …

Əli Bayramov adına Qadın Klubunun üzvü olub, Hüququ bitirib və hüquqşünas idi. Respublikanın prokuror köməkçisi vəzifəsində çalışıb, Oktyabr rayonunda hakim işləyib, Ali Məhkəmənin üzvü idi. Haqqında məqalə və kitablarda yazılar olub.

Çox xeyirxah qadın olub. Ehtiyacı olan insanlara kömək etməyə qadir insan idi. Heç vaxt deməzdi ki, filankəs məndən aşağı vəzifədədir, hamını evimizə gətirərdi, müharibə vaxtı qonum-qonşu bizdə olardı, anam onları yedirdib-içirdərdi. İmkanı oldu-olmadı, hamıya kömək edərdi. Ona görə ki, işləyirdi, vəzifəsinə görə müəyyən dərəcə maaşı və gəliri vardı, ürəyi çox yumşaqdı.

Biz hamımız onun ətrafında olmuşuq, bizə qayğı göstərib. Baxmayaraq ki, həmişə vəzifədə olub, özü demişkən kişi kimi işləyib. Bir ana olaraq, bizi o qədər sevirdi ki, indi də mənim övladlarım yuxularında anamı görürlər. Həmişə deyirlər ki, köhnə evimizi, nənəmizi yuxuda gördük. Xüsusilə Zeynəb deyir ki, nənəm, uşaq vaxtı yaşadığımız köhnə evimiz və sən yuxumdan çıxmırsınız, hər gün az qala, eyni yuxunu görürəm. Onlar o evin istisində, nənənin ətrafında böyüyüblər. Uşaqları böyütməkdə anam mənə çox böyük kömək edib.

Anam xəstə olanda Zeynəbi yanında qoyardıq ki, ona qulluq eləsin. O da anamın yatağında yanına girib, onu qucaqlayıb yatardı. Bacım deyərdi ki, biz Zeynəbi burada qoyuruq ki, ona kömək eləsin, o da nə kömək, yanında uzanıb şirin-şirin yatır.

Belə hamıya, hamıya kömək edən insan olub anam. Ehtiyacı olana, ac olana əl tutardı, küçədən dilənçini evə

gətirib yedirdərdi. Bir gün evə gələndə gördüm ki, içəridə bir qadın oturub. Soruşdum ki, mama, bu qadın kimdir? Dedi ki, bilirsən kimdir, Fətəlixanın nəslindəndir, nəyidirsə, küçədə üzünü bağlayıb əlini uzatmışdı…

Valideynlərim elə əqidəli, sovet hökumətinə inanan insanlar idilər ki... Çox sadiq idilər.

Mir Cəfər Bağırov atama (ya anama) ev verir. Yazılır ki, "Yoldaş Əsgərli 24 saat ərzində evlə təmin olunsun." Atama ünvanlar verilib ki, həmin ünvanları gəzib ev seçsin. Görüb ki, bir ev indiki "İstiqlaliyyət" küçəsindəki yaşayış binası olan "Monolit"dədir, bir başqası imarətdir... Muzey kimi evlər göstəriblər ona. Deyib ki, nəyimizə lazımdır belə evlər...

Nəhayət, Həzi Aslanov küçəsindəki köhnə evimizi bəyənib. 3 otaqdan ibarət ev imiş, deyib ki, 2 otaq bizə bəsdir, ikisini seçib, o biri otağı götürməyib. Oranı başqa adamlara veriblər, gördük onları, sonralar biz aldıq o otağı da.

Anam hakim idi, kiminsə işinə baxırmış, həmin adam bizə gəlib. Evdə nənəm tək imiş, qapını açıb, adam nənəmə portfel uzadaraq deyib ki, bunu yoldaş Əsgərliyə çatdırarsan. Nənəm də götürüb, sonra anamgil evə gələndə portfeli açıb görüblər ki, içi pulla doludur, rüşvət gətiriblər bizə. O zamanlar çox pis, qorxulu vaxtlar idi. Atam bu portfeli əlinə

alaraq, gecə səhərədək qorxudan küçələrdə gəzib. Fikirləşirmiş ki, birdən evə gəlib onları tutar, həbs edərlər. Arvadı – nənəmi öldürürdülər ki, sən utanmırsan, niyə portfeli götürmüsən?! Nəhayət, səhər açılanda həmin adamı tapıb pulunu ona qaytarıblar.

Mən o zamanlar yox idim, çox gec anadan olmuşam, söhbətlərdən bilirəm.

O vaxtlar qadınlar beretka taxırdılar, anam da başında beretka küçədə gedəndə bir uşaq beretkanı başından dartıb qaçıb. Uşağın ardınca qışqırıb ki: "Ay bala, yıxılarsan, qaçma, qaçma, cəhənnəmə olsun beretka, apar, qaçma, yıxılarsan"…

Belə xasiyyətləri vardı anamın, hər cəhətdən maraqlı insan idi. Hər şeyə əsəbləşirdi. Deyirdi ki, bu nədir, gedib kolxozda işləmir, işsiz oturublar, maşınlara bax şəhərdə, adamlara yer yoxdur… Hər işə qarışırdı.

Ailədə hamımız onu çox sevirdik. O özü də sevgi dolu insan idi. Amma elə alındı ki, yeganə oğlu Firudin 50 yaşında vəfat etdi. Onunla nəfəs alırdı anam. Baş həkim işləyirdi qardaşım. Bu dərd anamı pis hala saldı, gecə-gündüz fikir çəkdi.

Bir bacım da tez xəstələnib vəfat etmişdi. İndiyədək yadımdadır, bizim o köhnə evdə hamı yerdə oturmuşdu, başımı onun dizinin üstünə qoyub uzanmışdım və yuxu aparmışdı məni. Bax, bu yaşımda da o mənzərə gözlərim önün-

də canlanır. Hamı ağlayırdı, atam ağlayırdı, balaca idim çox, başa düşmürdüm niyə ağlayırlar. Adilə bacım idi, vaxtsız - 29 yaşında öldü.

Daha sonralar o biri bacım – Aliyə rəhmətə gedəndə anama bildirmədik, elə gözləri qapıda qalmışdı.

Anamın arzusu yerinə yetdi, xəstə olanda onu mən saxladım, vəsiyyət etmişdi ki, həyatdan köçəndə oğlunun yanında dəfn olunsun. Qubada oğlunun yanında dəfn etdik. Belə… Həyatdır da, nə demək olar, yaxşı da köçür, pis də köçür dünyadan, amma yaxşı insan özü haqqında yaxşı xatirələr qoyur, heyfsilənirsən. Pis insan haqqında da deyirsən ki, pis adam idi.

Gərək elə yaşayasan ki, həyatdan köçəndən sonra haqqında xoş sözlər deyilsin, həyat bir dəfə verilir insana, qoy öləndən sonra desinlər ki, doğrudan da çox yaxşı adam olub. Mənə elə gəlir ki, anam buna nail olub, hamı bu sözü deyirdi onun haqqında.

Atam çox sakit, özünə qapanan insan idi. O qədər də bizim işlərimizə qarışmazdı, ata idi də, müəyyən dərəcədə kömək edərdi, amma yenə də həyatımızda anam başçı idi. O, maaş alanda sevinirdik ki, mama maaş aldı, bizi kinoya aparacaq. Məni kinoya aparırdı, təzə bir şey alırdı. Mən onun qucağında, onun istiliyi ilə böyümüşəm. Neçə yaşında olursan ol, ananın qucağı sənin üçün ən isti, ən sevimli qucaqdır, o qucaq ən xoş xatirə kimi mənimlədir.

# *Sevgiylə böyüyən uşaq*



Mənim uşaqlığıma gələk. – Balaca Nailə sevgiylə böyüyən uşaq olub. Ətraf onu sevirdi, anası vardı yanında, qızın ürəyindən keçəni yerinə yetirirdi. Uşaqlıq dövrüm yaxşı keçib. Pis şey görməmişəm, musiqiyə gedib-gəlirdim. Musiqi məktəbinin direktoru anamın rəfiqəsi idi. Qəşəng piano ilə məşğul olurdum, 1 saylı musiqi məktəbində oxuyurdum.

Piano müəlliməm çox gənc idi, peşə məktəbini yeni bitirmişdi, konservatoriyada oxuyurdu. “Sovetski”də yaşayırdılar. Mən də təkbaşıma tramvaya minirdim, gedib onların evinin qabağında düşürdüm. Hörüklərim, sarı bantlarım, əlimdə “сумочка” – çantacığım vardı. Qapıdan içəri girən kimi deyirdi ki, “моя стиляга пришла” - mənim stilyaqam gəldi. Bax, bu mənim həmişə yadımdadır.

Bir dəfə Ülkər məktəblərarası tədbirdə konsertdə piano çalacaqdı. Getdim gördüm ki, həmin müəllimə oradadır, yaxınlaşıb dedim ki, mən sizin şagirdiniz olmuşam. Mən öz

övladımı gətirmişəm, o, jüridə oturmuşdu. Üzümə baxdı, bir az düşündü, sonra tanıdı.

Uşaq vaxtı bir ara Zivər xanım Əliyevanın – Vaqif Mustafazadənin anasının yanına aparıb gətiriblər məni musiqi duyumumu artırmaq üçün. İçəri şəhərdə Qoşa Qala qapısının yanında dar otaqda bir piano vardı...

Uşaqlığım normal, sevgi içində keçib, pis bir şey xatırlamıram. Yay olanda gedirdik Qubaya, gəzirdik. Orada mənim bir rəfiqəm vardı, Şahnaz Şükürullahi, əsli iranlı idi, Semaşko xəstəxanasında nevropatoloq işləyir. Çox şeir sevən idi, özü də şeir yazırdı. Onunla küçəmizi o başa-bu başa gəzirdik, bir yerdə kitab oxuyurduq, yəni bir az yaşımız artandan sonra romantikaya qapılır, xəyalla dolu bir dövr yaşayırdıq. Hərdən mənə zəng edir, olanları, keçənləri yada salırıq.





***Hamlet müəllimin Nailə xanıma olan sevgisi, bir ailənin bir-birinə olan istəyi necə möhtəşəm olarmış?!***

***Gülyanaq Məmmədova***
***Müğənni, Azərbaycan və Özbəkistan Respublikasının Xalq artisti***

# Sevmək nə deməkdir ee, dəli-divanə olmaq?!



Sevgi nədir, bilmirəm axı... Adam adamı görmək istəyir. Yəni ünsiyyətdə olmaq istəyirsən. Hamletin romantikliyi, şeir oxumağı xoşuma gəlirdi. Qonşu idik, mən ikinci, o birinci mərtəbədə yaşayırdı. Bir-birimizə öyrəşmişdik. Sevmək nə deməkdir e, dəli-divanə olmaq?! Hər şey öz yoluyla gedirdi, gələcəyə ümidlə baxırdıq. Ola bilsin o məni daha çox sevirdi, mən o qədər yox... Mən görünür ki, əvvəllər sevginin nə demək olduğunu yaxşı başa düşmürdüm.

# Məktəblər... Çətinliklər...

Məktəbdən sonra nə etdim? Əvvələn, orta məktəbdə oxuya-oxuya musiqi məktəbində pianino dərsi demişəm. Bu necə oldu? Mən Bakıda 189 nömrəli məktəbdə oxumuşam. Sonra Qubaya atamın yanına getdim, son iki ili Qubada oxudum və məktəbi orada bitirdim.

Bizim evdə bir piano vardı, Bekker (Becker)... Onu müharibə vaxtı atam almışdı. Neçə illər evdə o pianonu hamı çalıb, bacım, qardaşım, mən... Piano olduğu və musiqini sevdiyimiz üçün ailədə hamı çalırdı.

O zaman qanun vardı ki, yeddiillik musiqi məktəbini bitirən dərs deyə bilər. Mən həm orta məktəbdə sonuncu sinifdə oxuyurdum, həm də Quba musiqi məktəbində pianino müəllimi kimi işləyirdim. Ümumi fortepianodan tarçılara, skripkaçılara dərs deyirdim.

Məktəbi bitirdikdən sonra Bakıya qayıtdım, fikrimdə Xarici Dillər İnstitutuna daxil olmaq var idi ingilis dili üzrə. Müəyyən dərəcədə ingilis dilim yaxşı idi, çünki Bakıda oxuyanda güclü müəllim dərs deyirdi bizə, dil bünövrəm yaxşı qoyulmuşdu. Qubada isə müəllim zəif idi, heç bir inkişaf olmadı. Bakıya gəldikdən sonra müəllimlə məşğul oldum, bacım Təkmilləşdirmə İnstitutunda işləyirdi. Orada yaxşı müəllimlər vardı, yaxşı hazırlaşdım. O illərdə rus böl-

mələri üzrə ingilis dili fakültəsinə cəmi 25 nəfər qəbul var idi. Deyirdilər birinci növbədə müəllimlik stajı olanları götürəcəklər, mənim də stajım vardı – Qubada... Belə vaxtlar vardı...

İngilis dilindən qəbul imtahanı verdim və 4 (yaxşı) aldım. Dilçi alim İsmixan Rəhimov mənə dedi ki, yaxşı tələffüzünüz var. Tarixdən 5 aldım. Yazıdan – inşadan “3” yazdılar. Apelyasiyaya verdim, baxdıq gördük ki, demək olar ki, səhv yoxdur, kiçik nöqtə-vergül səhvi vardı. Faktiki olaraq keçməli idim, ona görə ki, pedaqoji stajım var idi, məni konkursdan, müsabiqədən keçməmək üçün qəsdən 4 ya 5 deyil, 3 qiymət vermişdilər.

Keçmədim, küsdüm, getdim musiqi ilə məşğul olmağa. 6 saylı məktəbi 10 illik musiqi məktəbi etmişdilər. Ora qəbul olundum və davam etdim. Düşünürdüm ki, 10 illik musiqi məktəbini bitirib, konservatoriyada təhsilimi davam etdirəcəyəm. Amma 9-cu sinfi bitirdim, elə alındı ki, Hamlet rastıma gəldi. Evləndik, onunla çıxdım getdim Moskvaya. Moskvadan qayıdanda Hamlet ali təhsil almamı istədi, məni ürəkləndirdi. Fikirləşdim ki, hamı gedir oxuyur, qoy mən də sınayım özümü. Axundov adına pedaqoji universitetin Rus dili və Ədəbiyyatı fakültəsinə imtahan verdim və qəbul olundum.

Mən 4 il oxudum. İnstituta qəbul olunanda Aygün, bitirəndə Zeynəb anadan oldu. Lakin əyani oxudum, hətta təqaüd alırdım.Yəni yaxşı oxuyurdum, Hamlet o vaxt Moskvada idi, mən anamın yanında qalırdım. Beləcə həm uşaq böyüyürdü, həm də mən təhsil alırdım...

Elə şeylər var ki, adam danışmaq istəmir. O qədər şeylər var ki... Çətin şeyləri danışmaq, üzə çıxartmaq istəmirsən. Anamla konflikt oldu, Yasamalda kirayədə qaldıq, Aygün balaca idi, onu səhər saat 7-də bağçaya qoyurdum, heç kəs yox idi. Hamletin maması (bibisi) qızları Elza ilə Qətibə bizimlə qalırdılar, onlar da ali təhsil alırdılar.

Sonra Hamlet xəstələndi, daha sonra mən xəstələndim. O xəstə olanda getdim ona tibb bacısı axtarmağa. Soyuq vurdu, külək, yağış... Yanvar ayı... Başıma soyuq dəydi. Xəstəxanada yatmalı oldum. Zeynəb doğulmalıydı, apreldə anadan oldu. Ev sahibəsi birdən ev kirayəsini qaldırdı, Hamlet də doktoranturada oxuyurdu. Bir ərəb aspirantı var idi, Quran hədiyyə vermişdi. Elə də gözəl Quran idi, qabın içində... O vaxt tapılmırdı. Bağışladım ev sahibinə ki, kirayə pulunu qaldırmasın.

***Onlar qoşa qanad idilər, qoşa qanad olmaq isə çoxlarına nəsib olmur! Allah-Təala Hamlet müəllimlə Nailə xanımı bir-birinin taleyinə yazmışdı. İlahi, insanlar nə qədər bir-birini başa düşərmiş...***

***Mən onlarda olanda elə çox məqamların şahidi olmuşam...***

***Bir-birinə baxışları, müraciətləri... Nələr yox idi o baxışlarda?! – orada sevgi də, hörmət də, məhəbbət də, dostluq da vardı. Bu insanlar bölüşürdülər, evdə təkcə ailə məsələləri müzakirə olunmurdu, məktəbin də, universitetin də söhbətləri gedirdi.***

***İlham Pirməmmədov***
***Fizika - Riyaziyyat elmlər doktoru, Professor***

# O sari simlərə toxunmuruq...



Hamletlə birgə yaşadığımız bu uzun illər ərzində həyatın hər üzünü - çətinliklərini, yaxşılıqlarını, sevincini, qəmini görmüşük. Xəstəlik də olub, yəni hər şey olub həyatımızda, həyatın hər üzünü görmüşük. Bu bizi birləşdirib, bir edib...

Mənim öz hisslərim var, hansı ki, onlarla yaşayıram, bəzən o hisslərə qapanıram. Onun da öz hissləri var. Və biz bir-birimizin dəruni hisslərinə dəymirik, qarışmırıq. Necə deyərlər, o sarı simlərə toxunmuruq.

Onun düşüncələrində nələrsə var, hansı ki, mənə demək istəmir. Mən də heç vaxt maraqlanmıram ki, bunu mənə niyə demədin, niyə danışmadın?! Mənim özümün də var, bəlkə də o, bunu bilir, bəlkə də bilmir, deyə bilmərəm... Amma belədir də, yaşayırıq və həyatdan zövq alırıq...

Çətinliklərimizi yada salırıq bəzi vaxtlar, o zaman bizə çox çətin gəlmirdi, amma indi fikirləşəndə deyirəm ki, bunu mən necə yaşamışam, indi olsaydı, bəlkə də edə bilməzdim. Həyat bizi birləşdirdi və bu günə gətirib çıxartdı, müəyyən dərəcədə nələrəsə nail olduq.

Əsas odur ki, bizim ikimizin də içində təmizlik, dürüstlük və saflıq var. Hamletin özündə bu var və mən heç vaxt onun əqidəsinə, düşüncəsinə, qoyduğu qanunlara qarşı çıxmamışam, onları pozmamışam. Ola bilsin ki, səhv də olub, həyatdır da, nələrisə də düzgün etməmişik, amma əqidə deyilən şey var ha, onu pozmamışıq. İnsanın əqidəsi olmalıdır və onu qoruyaraq, ardınca getməlidir.

Fikirləşir ki, universitet yaratdım, universitet saf, düzgün olmalıdır, rüşvəti olmamalıdır. Əqidəsini 26 ildə pozmadı bu adam, düz yolla getdi. Məndən çox xahişlər oldu, yaxınlaşıb kömək istədilər, dedim ki, yox, mən bunu heç vaxt etmərəm. Yəni ona xəyanət etmiş olaram. O, yolundan dönmür, mənə də öyrətdi belə olmağı. Bu cəhəti ondan qəbul etdim və biz belə yaşadıq…

# Bir az qəmlənmək və bir az dəmlənmək üçün...




Axşamlar biz evdə musiqi saatı keçiririk - tanış olduğumuz, bir olduğumuz ilk günlərdən bəri. Gecə saat 12 ətrafında, işdən-gücdən ayrılandan sonra həvəs yaranır. Mən

pianoda çalıram, xoşumuza gələn yaxşı mahnıları oxuyuruq.

İki dənə siyahımız vardı bizim, bu siyahı nədən ibarət idi?! – Birində Hamlet qəmgin, həzin mahnıların, adlarını yazıb üstündə qeyd etmişdi: "Bir az qəmlənmək üçün". Bir siyahı da şən, oynaq mahnılardan ibarət idi, orada da yazmışdı: "Bir az dəmlənmək üçün". Bir az qəmlənmək üçün, bir az dəmlənmək üçün…

Hamlet müəllim o iki siyahını növbə ilə qoyurdu qarşıma və deyirdi ki, hə, çal, başlayaq. Beləcə çalıb-oxuyurduq, axşamlar öz əhval-ruhiyyəmizi qaldırırdıq.

## Sən məni məst eyləyibsən, İnciçiçəyi!

Bir axşam pianonun arxasında oturmuşdum, o da öz otağında çalışır, mən də balaca-balaca çalırdım. O həmişə mən çalmağa başlayanda, atır bütün işlərini, mütləq nə olursa, olsun, gəlib oturur yanımda və biz öz musiqi fəaliyyətimizə başlayırıq. Birdən ona dedim:

-Bilirsən, Hamlet, burnuma bir qoxu gəldi, "landış"ın iyi gəldi, bir gözəl, incə çiçək var, "landış", onun qoxusu...

O da məndən soruşdu ki, "landış" hansı güldür, yəni azərbaycanca adı nədir?! – Cavab verdim ki, Azərbaycan dilində bilmirəm onun adını, amma xırda ağ güldür, yarpaqları var, may ayında bitir o və tez də qurtarır. Çox gözəl qoxusu var, o qədər incədir, indi birdən-birə gözümün qabağına gəldi və iyini hiss etdim. Dedi ki, qoy gedim, baxım, görüm landış hansı çiçəkdir? Keçdi otağına, lüğəti tapdı, gəlib mənə dedi ki, inciçiçəyi! "Landış"ın adı inciçiçəyi imiş...

Çıxdı getdi otağına, işinə-gücünə... Mən də özüm üçün pianoda yadıma düşən mahnıları çalıb oxuyurdum. Yarım saat keçməmişdi ki, gəldi əlində şeirlə. Başladı "İNCİÇİÇƏYİ" adlı şeiri oxumağa:


İNCİÇİÇƏYİ
Söz: Hamlet İsaxanlı
Musiqi: Nailəxanım İsayeva
Sən gözələ gözüm düşüb,
Elin elimdən,
Dilin dilimdən.
Fələk elçi düşsə belə
Vermərm əlimdən.
Naz eyləsən, əl ataram
Hər fəndi-felə,
Əlləşmə göylə,
Eşqimə aç qucağını,
Şükürlər eylə.
Sənsiz gülşənim puç olar,
Duy bu gerçəyi,
Çöllər göyçəyi.
Sən məni məst eyləyibsən,
İnciçiçəyi.

Şeir çox xoşuma gəldi, çox gözəl yazılmışdı, məni inciçiçəyi ilə eyniləşdirmişdi. Gülüşdük, müzakirə etdik, dedim ki, nə tez yazdın?! Dedi ki, görürsən, sən dedin, mən də yazdım, indi bu şeirə bir mahnı mütləq bəstələyərsən.

Hər zaman bir şeirin yaranma tarixçəsi mənə aid olanda, o şeirə bir musiqi bəstələmək, musiqi ilə bir yerdə səslənməsini istəyirəm. Belə daha maraqlı olur. O həyatı şeirə çevirir. Hissər şeir şəklində yaşayır. Şeiri musiqiyə calaşdıranda ömrü daha uzun olur və onu  çox insan dinləyə bilir.

Mahnı ərsəyə necə gəldi?! Xəstəliyimlə əlaqədar İstanbula tez-tez gedib-gəlirdim. Orada özümə məxsus pianom vardı, "Petrof", anam almışdı mənim üçün. O pianonu mən Zeynəbə göndərmişdim, Zeynəb gözəl çalır deyə, düşündüm ki, onun pianosu olsun, sonra özüm üçün yenisini aldım.

Mən xəstəliyimi özümə heç vaxt dərd etməmişəm. Müalicə edirik, "tədavi" deyirlər, hər tədavidən sonra pianoda çalıb-oxuyurdum. Hamletin şeirləri var da, qoyurdum kitabı qabağıma, birdən yadıma düşdü ki, axı onun bir "İnciçiçəyi" şeiri də var. Başladım ona musiqi bəstələməyə. O şeirə yaraşdırdığım mahnını sonralar Brilyant xanım Dadaşova oxudu. Səsyazma studiyasında, yadımdadır, Nərgiz Cəlilova da vardı. Dedi: "Наиля ханум, какая добрая песня»! (Nailə xanım, necə də əziz, xoş mahnıdır"!)

Doğrudan da, Nərgiz düzgün başa düşüb, mahnı çox pozitivdir, müsbət, nikbin təsir bağışlayır. Yəni ruslar deyirlər ki, "она жизнеутверждающая", жизнелюбие в этой песне, очень много этого всего" (O, həyat bəxş edəndir, həyatsevərlik var bu mahnıda, çox-çox). Və həyat eşqi ilə yaşayırsan, "эта музыка излучает добро и в ритме вальса"... (Bu musiqi mehribanlıq şüalandırır, vals ritmində, vals üslubundadır bu mahnı). Çalışdım, çalışdım, musiqi alındı, bu mənim ikinci mahnım idi, birincisi "Sadəcə çox sevdim səni", ikincisi "İnciçiçəyi".

***İlk növbədə, məni mahnının sözləri, musiqinin geniş diapazonda melodik cəhətdən çox zəngin olması heyrətə gətirmişdi, həm də Nailəxanımın özünün intellektual səviyyəsi, onun çox gözəl, ziyalı Azərbaycan xanımı olması böyük simpatiya yaratmışdı. Onların ailəsi ilə sonradan bizim dostluğumuz davam etdi. Onlar yalnız yaradıcılıqda deyil, həyatda da ömür-gün yoldaşı kimi vəhdət təşkil edirdilər.***

***Brilliant Dadaşova***
***Azərbaycan Respublikasının Xalq Artisti***



# İki mahnı, iki müğənni

Bakıya gələndən neçə vaxt sonra bir gün yaxın rəfiqəm, peşəkar musiqiçi - pianoçu Yeganə Axundova ilə bir təqdimata getmişdim. Orada İlqar Muradov mahnı oxudu, fikirləşdim ki, nə gözəl səsi var, ürəyəyatımlı, məxməri... "Sadəcə sevdim səni" romantik şeirdir və musiqisi də ona uyğundur. Düşündüm ki, İlqar bunu oxusa, çox yaxşı olar. O zaman çox yaxından tanımırdım onu, bir gün Yeganə ilə müzakirə etdik, Hamlet müəllim dedi ki, mütləq bu iki mahnını verək, oxusunlar. Mənim fikrimdə yox idi kiməsə mahnı vermək, özüm üçün bəstələyib, çalıb-oxuyurdum. Özümü professional hesab etmirəm deyə, deyirdim ki, bunları ortaya çıxartmaqmı olar?! Yəni mahnılarımın o qədər professionalizmi yoxdur, sadə melodiyası var, amma keçidləri olmalıdır, onlar professionallıq tələb edir, edə bilmərəm...

Amma Hamlet belə düşünmürdü. O, peşəkar bəstəkarlar məktəbi keçməyən, amma çox gözəl mahnılar bəstələmiş insanların adını çəkir, "Küçələrə su səpmişəm" kimi möhtəşəm mahnıları musiqi ilə dolu insanların yazdığını, o zaman bəstəkarlıq təhsilinin olmadığını deyirdi.

O biri mahnını da kimə vermək haqqında düşündük. Hamlet Brilyantla danışdı, bu mahnını da o repertuarına saldı. Belə! Bu mahnı da belə yarandı – "İNCİÇİÇƏYİ". İndi Dünya Məktəbində uşaqlar oynayırlar onu vals şəklində, tədbirlərinin proqramına salırlar.

# Gedim lalələrə baxım...

Hamletin "Lalə" şeiri var. O şeir necə yazılmışdı?! Biz Gürcüstana gedirdik. Avtobusda Camal müəllim, (Professor, filosof Camal Mustafayev) Solmaz xanım (Professor, tarixçi, Solmaz Rüstəmova Tohidi) və daha bir neçə nəfər vardı. May ayı idi, yolda gördüm ki, çəməndə lalələr açıb, elə gözəl görünürdülər ki – sarımtıl güllər, qırmızı lalələr, yaşıl ot... Dedim ki, saxlayın, gedim lalələrə baxım, o çiçəklərlə görüşüm bir az... Getdik lalələrin içində gəzdik, oturduq, şəkillər çəkdirdik. Yaddaqalan vaxt idi, bir yerdə idik, maraqlı insanlarla yol gedirdik, maraqlı söhbətlər edirdik. Bir müddətdən sonra şeir yarandı, Hamlet bu şeiri yaz-



dı. Kitabda da yazılıb: “Gəncəyə gedən yolda”... “Lalə” şeiri lalə kimi parladı, doğuldu.

**Lalə**

İncə alov tək dikəldi,
Parladı yandı lalə,
Gözümüzə işıq gəldi,
Könül cumdu xəyalə.

Yanağı al-qırmızıdı,
Göydə yazılmış yazıdı,
Allahın doğma qızıdı,
Əhsən o mahcəmalə.

Dağlı, çöllü, meşəlidi,
Sərxoş, ürkək, ya dəlidi,
Hər halda çox nəşəlidi,
Gəlməyəydi zavalə...

Onu işvəkar sanmayın,
Ona dəyib toxunmayın,
Amandır, vüsal ummayın,
Lalə dözməz vüsalə...

Şeirdə deyir ki, amandır, laləyə toxunmayın, dəyməyin. Laləni dərəndə ləçəkləri tökülür də... Brilyant da oxudu, sonradan Aygün Bəylər də oxudu o mahnını. Onlara, hər ikisinə dedim ki, bilirsən, sən bunu oxuyanda yalvar, de ki, "Amandır, amandır, amandır, amandır. Laləyə dəyməyin, amandır"... Yadımdadır, Aygün Bəylər oxuyandan sonra deyirdi ki, Nailə xanım, baxın, bu yerdə mən yalvarıram haaa...

Mahnının yazılma tarixi belə oldu. Mən bağda piano qarşısında oturub musiqi bəstələməyə başladım. Nə qədər çalışırdım, müəyyən yer, bir keçidi alınmırdı. Bir gün Hamlet İrana getdi, mən də piano arxasında oturdum və başladım mahnını çalmağa. Və alındı, xoşuma gəldi. Zəng elədim, hay-küylə, sevincək dedim: "Hamlet, alındı, düzəldi". O da sərhəddə pasport nəzarətini keçirmiş başa düşmədi, soruşdu ki, nə olub, nə alındı?! Dedim ki, mahnım düzəldi. Bir haray salmışdım ki... Xeyli güldü, hər yerdə danışır bunu. Sevincimi onunla bölüşdüm.

## İnsan bəzən istəyir ki, tək qalsın...

“Təklik” – bu Hamletin yazdığı çox maraqlı şeirdir. O şeirin mənası insan həyatı ilə bağlıdır, həyat tək ünsiyyətdən ibarət deyil, bir az başqa cürdür. Yəni insan bəzən istəyir ki, tək qalsın, özünün düşüncələrinə qapansın. Ətrafda heç kəs olmasın, sadəcə öz-özüylə, iç dünyasıyla danışsın. Yorulur insan ətrafdakı hay-küydən, şəhərlərdən, boş danışıqlardan, haqsızlıqlardan, boşboğazlardan, bağırıb şeir oxuyanlardan, bütün məclislərdən. Uzun şeirdir, mən müəyyən bəndləri seçib istifadə etdim, hamısını mahnıya salmadım. Mahnını ərsəyə gətirməyim uzun çəkdi.

Çox qəmgin mahnı alındı. Onu Flora Kərimovanın səsinə bənzəyən bir səslə oxuyurdum. Yəni mahnı bunu tələb edirdi.

Yoruluram
Şəhərlərin səs-küyündən,
Qaçmaq istəyirəm hərdən
İnsanlardan, bu gündən...

## Şeir mənə çox təsir etdi, qürurlandım

İlk dəfə musiqi bəstələməyimin tarixçəsi belə olub – neçə illər əvvəl ad günüm idi. Universitetdə mənə yaxın olan qadınlar qərara aldılar ki, bunu təbiətin qoynunda qeyd edək. Və biz hazırlaşıb getdik Qubaya. Oradan çox gec qayıtdıq. Hamlet müəllim də evdə tək qalmışdı, adətən, o, evdə tək qalmağı sevmir. Həmişə istəyir ki, mən evdə olum. Ad günüm bazar gününə təsadüf etmişdi.

Düşündüm ki, ay Allah, biz gec gəlirik. Ona görə dedim ki, gəlin, qızlar, hamımız bir yerdə bizim evə qalxaq,



Hamlet müəllim görsün ki, siz də yanımdasınız, bir söz deməsin. Çıxdıq bizə, təbii ki, o, öz işçilərini görəndə çox sevindi, xoş qarşıladı bizi. Necə gedib-qayıtdığımızı soruşdu, bir müddətdən sonra əlində bir kağız açıqca gətirib gəldi. Orada nələrsə yazılmışdı. Və yazdığını oxumağa başladı, gördük ki, şeirdir. Şeiri mənə həsr etmişdi – "Sadəcə çox sevdim səni"...

***"Aha! Bildim nə edəcəm. Başımda bir fikir vardı: Sevgi barədə danışanda və yazanda adətən "dərdindən dəli olmuşam", "Məcnun yanımda heç nədir", "eşq atəşindən külə döndüm" kimi təmtəraqlı sevgi təşbehləri ortada hökm sürür. Sadə, səmimi sevgi, bağlılıq barədə çox danışılmır. Mən o məşhur aşiqlərdən deyiləm, amma sadəcə səni çox sevirəm; beynimdə "Sadəcə, çox sevdim səni" və bunun tərsinə düzülüşü – "Səni sevdim çox sadəcə" ifadələri dolaşırdı. "Bu hissləri şeirə döndərib sənə hədiyyə etsəm pis olmaz", - deyə düşündüm. Şeir hazır olanda onu sənə təqdim etmək üçün bir bəzəkli xüsusi kağız parçasına köçürdüm (onu bu yaxınlarda sənin kağızların arasında tapdım).***

***Gec gəldiniz, yəqin ki, gününüz maraqlı olmuşdu. Sən tək gəlmədin, səninlə bir yerdə Qubaya gedənlər bizə, çay içməyə gəldiniz. Bəlkə də tək gəlsən, "çox gec gəldin" deyə bilərdim. Hər halda, kefinizin kök olması və indi mənim iştirakımla kef məclisinin davam etməsi mənə də xoş idi. "Əzizim Nailə xanım, ad gününü təbrik edirəm, sənə xüsusi hədiyyə almamışam, bağışla bu yazıq bəndəni, amma, sənin şəninə bir şeir yazmışam, onu sadə bir hədiyyə kimi qəbul et" dedim və şeir yazılmış kağızı sənə uzatdım. "Oxuyun, oxuyun" səsləri gəldi. Şeiri oxudum.***
***Məclis əhli əl çaldı. Sənə çox xoş olduğunu, hədiyyəmin yerinə düşdüyünü hiss etdim".***

***Hamlet İsaxanlı "Son görüş olmayaydı"***
***(Nailə xanım İsayeva XATİRƏLƏRDƏ)***
***Xəzər Universiteti Nəşriyyatı Bakı – 2022***

Şeir mənə çox təsir etdi, qürurlandım, o, hamının – işçilərinin, universitetin xanımlarının yanında özünün hisslərini biruzə verdi, o şeiri oxudu. Şeir belə başlanılır:

**Səni sevdim gündən-günə daha dolğun, daha incə,**
**Düşünmədən, daşınmadan, bər-bəzəksiz, çox sadəcə.**
**Səni sevdim yerə həsrət yağış kimi, leysan kimi,**
**Səni sevdim gözəlliyə heyran olan insan kimi**
**Sadəcə, çox sevdim səni,**
**Səni sevdim çox sadəcə!..**

**... Məcnun olub, dərdli eşqlə səhralara üz tutmadım**
**İnsanlardan uzaq düşüb ceyran-cüyür ovutmadım**
**Xəyalına səcdə qılıb vüsalını unutmadım**
**Sadəcə, çox sevdim səni**
**Səni sevdim çox sadəcə.**

**Fərhad olub, dəryaları məcrasından döndərmədim**
**Xosrov kimi can yanğımı məhəbbətlə söndürmədim**
**Dünyanın naz-nemətini sənə bəxşiş göndərmədim**
**Sadəcə, çox sevdim səni**
**Səni sevdim çox sadəcə...**

Çox gözəl şeir idi və mən hesab edirəm ki, bu həyatımda ən dəyərli, ən gözəl hədiyyədir. Ondan sonra bu şeirə musiqi bəstələməyə başladım. Nəsə də alındı, bu da mənim ilk mahnım oldu. Mahnını Xalq Artisti İlqar Muradov və digər müğənnilər də oxudu.



***Həyatımda Nailə xanımla bağlı çox gözəl xatirələrim var. Bizim iş birliyimiz olub, onun "sadəcə çox sevdim səni" ilk mahnısı ilə əlaqədar çox hörmətli bəstəkar Siyavuş Kəriminin studiyasında Hamlet müəllim və Nailə xanımla görüşüb tanış olduq.***

***... Mahnı çox sevildi, dillər əzbəri olan bu mahnını mən də sevərək dəfələrlə ifa etmişəm. Sözləri Hamlet müəllimin, musiqisi Nailə xanımındır. Sonralar onların "Gözəldir" mahnısını da oxudum.***

***... Düşünürəm ki, Nailə xanımın mahnıları daim repertuarımda olacaq və onları sevə-sevə ifa edəcəyəm.***

***İlqar Muradov***
***Müğənni, Xalq artisti***

## Mahnılar, musiqilər məni yaşadır...

Mahnılar, musiqilər məni yaşadır, onlardan zövq alıram, məni həyata bağlayır. Musiqisiz həyatımı təsəvvür edə bilmirəm. Musiqini duymayan insanı anlamıram. Ümumiyyətlə, bütün musiqi janrlarından xoşum gəlir. Aşıq musiqisindən tutmuş klassiklərə kimi... Onlardan zövq ala bilirəm. Estradanı da, cazı da sevirəm. Sakit caz var, onu çox sevirəm.

Saatlarla aşıq musiqisinə qulaq asa bilərəm. Halbuki mən uşaqlıqdan aşıq musiqisinə alışmamışam. Yəni bizdə heç vaxt dinlənilməyib. Sadəcə anam o tərəfdən olduğu üçün sevirdi aşıq musiqisini. Biz isə anlamırdıq. Sonralar mən Gürcüstana getdim, oradan Hamlet, onun qardaşları və qızlarımızla birlikdə dağlara istirahətə, dincəlməyə getdik. Dağla aşıq musiqisi arasında bir assosiasiya, yaxınlıq yarandı məndə. Bəlkə də o dağları gəzmişəm, sadə insanların içində, təbiətə yaxın olmuşam deyə, aşıq musiqisi də xoşuma gəlib...

Dağda aşıqlar gəlib oxuyardılar, məclislər qurulur, qonaqlıq edər, qoyun kəsər, kabablar bişirərdilər. İndi aşıqlara qulaq asanda həmin o təbiət, hadisələr, gəncliyim gözlərim önündə canlanır və mən bundan zövq ala bilirəm. Maraqlısı budur ki, mən yaxşı çalan aşıqla zəif çalanı fərq-

ləndirə bilirəm, hansı məktəbə mənsub olduğunu anlayıram. Məsələn, deyirəm ki, bu Əmrahın, ya Kamandarın, ya Hüseyn Saraclının məktəbinə oxşayır, bu filankəsin məktəbidir, bunları da anlayıram. Sonra görürəm ki, aparıcı da mən deyəni deyir. Zövq alıram ki, bilirəm, tanıyıram.

Muğamı çox dinləyirəm. Muğam müsabiqəsi olanda hətta başqa işlə məşğul olsam da, qulağım səsdə olur, televiziyada, muğamda. Hər musiqinin öz yeri var. Hər musiqini sevirəm. Çox sevirəm məşhur klassikləri. Klassik musiqi səslənən mühitdə olmağı xoşlayıram. Filarmoniyaya gedəndə o mühitlə yaşayıram. Kiçik yaşlarımda imkan olmurdu, o zaman filarmoniyaya seçilmiş insanlar gedirdi. Mən də musiqi məktəbində oxuyanda bizə abonement verirdilər. Biz də gedib otururduq filarmoniyanın balkonunda, ayaq üstə dayanıb musiqiləri dinləyirdik. O vaxtlar öz-özümə deyirdim ki, vaxt gələcək, mən burada aşağıda, parterdə birinci sıralarda oturacağam. Bu arzu ilə yaşayırdım. İndi, şükür Allaha, arzum yerinə yetir... Hər dəfə filarmoniyaya gedəndə bunları düşünürəm, bu duyğuları, hissləri yaşayıram.



***Doğru deyirlər ki, insanın əməyi özünə bənzəyir. Nailə xanımın bəstələdiyi mahnılar özü kimi yumşaq, mülayim, həzin və incədir! Bu qadının qəlbi sanki incə səs ilmələrindən toxunmuşdu, gözlərində o ilmələrin parıltısı vardı, danışığında o ilmələrin ahəngi vardı, bütün davranışı o incə ilmələrdən toplanmış bir həyat tərzi idi.***
***Mahnıları çox gözəldi!***

***Cavanşir Quliyev***
***bəstəkar***

## *Çətinliklər mənə xoş idi... Özümü xoşbəxt hiss edərdim...*

... Çətinliklər mənə xoş idi. Onda heç düşünmürdüm ki, bunlar çətinlikdir. Mənə elə gəlirdi ki, belə də lazımdır. Yəni ailə böyük olmalıdır, qardaş var, bacı var, yaxın qohumlar var... Özümüzün dörd uşağımız və Hamletin qardaşları bizimlə yaşayırdılar. Çatışmayan şeylər də vardı, bəzən pul da çatmırdı. O, daim Moskvada olurdu, mən tək idim, böyük ailənin idarəsi ilə məşğul idim.

Baxmayaraq ki, evin ən kiçik qızı olmuşam, əlimi ağdan-qaraya da vurmamışam, o vaxtlar heç özümə çay da süzməmişəm. Amma həyat elə gətirib ki, böyük bir ailəyə rəhbərlik etmişəm. Düşünmüşəm ki, elə edim ki, evdə heç nəyə ehtiyac olmasın, yayda qış tədarükünü, qışda yay tədarükünü görüm. Al, gətir, bişir, düzəlt, kompotlar bağla ki, qışda hər şey olsun. Böyük ailəni idarə edirdim, heç nə olmayanda, heç olmazsa, evdə olan şeylərdən istifadə edirsən, ailəni bir yerə toplayırsan, yəni istilik yaradırsan.

Hamlet Moskvada əvvəl aspiranturada, sonra doktoranturada oxudu. Çətinliklər olub, amma o çətinliklərdən rahat çıxmışıq. Ətrafımda qohum-qardaşım bilirdi ki, mənim çətinliklərim var. Onlara pis təsir edirdi. Mən elə böyüməmişəm axı… Anam deyirdi ki, sən indi nə vəziyyətdəsən, bu nədir, gecə saat 12-də də adam xörək bişirərmi, bu

qədər adama necə baxırsan, necə qulluq edirsən?! Ona çox təsir edirdi, məni əziz-xələf böyüdüb, mən də birdən-birə böyük ailəni idarə etməyə, əziyyətini çəkməyə başlamışdım.

Əvvəl anamla bir yerdə yaşamışıq, sonra biz köçüb Əhmədliyə getdik. Elmlər Akademiyasının kooperativ evindən az-az ödəməklə mənzil aldıq. Ora köçdüm ki, anam görməsin mənim işlərimi, çətinliklərimi. Fikirləşsin ki, qızım xoşbəxtdir, yaxşı yaşayır. Baxmayaraq ki, onların mənə yazığı gəlirdi, mən deyirdim: "Yox, hər şey normaldır, həyat belə olmalıdır". Özümü xoşbəxt hiss edirdim. O şeylər hamısı məni xoşbəxt edirdi, heç nəyi dərd, zülm kimi qəbul etmirdim.

İndi görürəm ki, o uşaqların, ətrafımdakı adamların mənə münasibəti çox doğmadır, qayınlarım, qohum-qardaşım o zamandan mənim üçün əziz olublar və mən də onlar üçün əzizəm. Onlar bir sözümü iki etməyiblər, hər arzumu o dəqiqə yerinə yetirmək istəyirlər. Mən bunu hiss edirəm, görürəm. Lakin heç vaxt gözləməmişəm ki, filan işi görüm, onlar da mənim üçün nəsə etsinlər. Xeyr, heç ağlıma da gəlmirdi. Fikirləşirdim ki, paltar çirklidir, yumalıyam, geyindirməliyəm, uşaqdır, yemək yeməlidir, xəstədir, xəstəyə baxmalıyam. Cörək yoxdur evdə, yağış-boran-qar oldu, özüm gedib alırdım, gətirirdim, düzəldirdim.

Hamlet müəllimin xoşu gəlirdi, yığırdı camaatı evə, bəzən gecə saat üçə, dördə kimi şahmat turniri gedirdi evdə.

Bütün dostları, yoldaşları yığılırdı evimizə. Acırdılar, xörək bişirirdim.

Hamletin yazıları olurdu, dissertasiya yazırdı, Moskvaya göndərirdi, makinada çap edirdim. Gecələr oturur, onun məqalələrini rus dilində korrektə edib, Moskvaya göndərirdik. Bizim həyatımız belə keçib. Pis şeylər də olurdu. Pis adamlar da olub, onun nailiyyətlərinə paxıllıq edirdilər, haqqında böhtan yazırdılar, yazılanlara cavab verirdik. O qədər şeylər olub ki… Hamısını danışmaq olmur, pis insanlardan pisliklər görmüşük. Amma biz həmişə nikbin olmuşuq, heç vaxt bədbin olmamışıq. Ailəmizdəki birlik bizi birləşdirib, uşaqların çoxluğu, ailənin böyüklüyü bir sevincdir. Həyatın yaxşı tərəfini görmüşük.

Mən həmişə sevirəm ki, bayramlarda bayram ənənələrini saxlayım, necə lazımdır, elə də edim. Novruzda hər cür xörəyim olsun, balığım olsun, burnuna qızıl üzük taxım və sair. Bunların hamısını edirdim, bişiribib-düşürürdük bir yerdə, şəkərburası, paxlavası və daha nələr. Birgə bu işləri görürdük. Uşaqlar yığılırdı bir yerə, qızlar kömək edirdi, Hamlet müəllim də gəlib baxırdı, sevinirdi, gedib işini görüb gəlirdi, yenə qayıdıb baxırdı, sevinirdi.

Bunlar həyatda ən gözəl, unudulmayan günlərdir. Biz uşaqlarla bir yerə yığılanda tez-tez o günləri yada salırıq. Biri deyir ki, sən maqqaşlayırdın, mən yağlayırdım. Baxmayaraq ki, çətin günlər idi, amma xoş günlər daha çox idi.



***Nailə xanımın həyatının bir günü var ki, o günü xüsusi olaraq xatırlayıram. Dünya Məktəbində yubileyi qeyd olunurdu. Tale elə gətirib ki, onların dörd qız övladlarının dördü də valideynlərdən uzaqlarda, xarici ölkələrdə yaşayırlar. Tez-tez görüşə bilmirlər. Yubiley gecəsində Hamlet müəllim qızlarını ona sürpriz etdi. Pərdələr açılanda və qızlar qəfil səhnədə***

***görünəndə, mən səhnəyə deyil, Nailə xanıma baxırdım. Düşünürdüm ki, o, bu qədər emosiyanı ürəyinə necə yerləşdirə bilir?!***
***Hamletin bəxti gətirmişdi...***
***İdeal insan, ideal qadın idi. Çexovun məşhur ifadəsi var ki, insanda hər şey gözəl olmalıdır. Sözün əsl mənasında, Nailə xanım hər manada gözəl və böyük insan idi. Azərbaycan qadınının başını uca edən iftixarlı xanım idi...***

***Ramiz Həsənoğlu***
***televiziya, teatr və kino rejissoru, Xalq Artisti***

## *O günləri unuda bilmirəm...*

Uşaqlarımıza da biz neqativ şeylər öyrətməmişik. Düzgünlüyü öyrətmişik. İçləri nədir, zahirləri də elədir. Biz düşünmüşük ki, ağıllıdırlar, özləri yollarını sərbəst tapıb yaşayacaqlar. Onlara savad vermişik, müəyyən istiqamət vermişik ailədə, burada da, təbii ki, Hamlet müəllimin böyük rolu var.

Bizim evdə mühit elə idi ki, yalnız yaxşı oxumaq, bilik qazanmaq, harada təhsil almaq, təhsili harada davam etdirmək barədə düşünülürdü. Ona görə də onların dördü də öz yolunu tapdı, oxudu, yaxşı sənət sahibi oldu. Öz işlərini, ailələrini qurub, harada necə istəyirlər, elə də yaşayırlar, biz də maraqlanırıq, lazım olanda bir az da kömək edirik onlara. Elə böyük bir ehtiyacları yoxdur, çünki zəhmət çəkməyə alışıblar, həyatda nələrəsə nail olmağa çalışırlar. Demirlər ki, bizə kömək edin. Mən bu sözü onlardan heç vaxt eşitməmişəm. Düşüncələri o dərəcədə sərbəstdir ki, həyatda da hər şeyi özləri qazanmaq istəyirlər. Necə ki, hər şeyə Hamlet müəllim özü təkbaşına nail oldu, uşaqları da onun kimi…

Mənə ən çox oxşayan böyük qızım Aygündür. O bilirsən necə qız olub?! Evdə narazılıq olanda da sülh yaradan olub həmişə. İndi də mütləq zəng vurub atası ilə danışma-



***Mənə ən çox oxşayan böyük qızım Aygündür...***

lıdır, hal-əhval tutmalıdır, ümumiyyətlə qayğısına qalmalıdır – “Ata, çay içirsən, yemək istəyirsən”?

Aygün ən çətin günlərimizin övladıdır. Bizim çətinliklərimiz çox olmayıb, dərin problemlərimiz olmayıb, Hamlet müəllim maaş alıb, orta, ortadan bir az aşağı, bəzən bir az yuxarı yaşamışıq, dolanmışıq. Amma müəyyən dərəcədə müqayisədə çətinliklərimizi, çatışmamazlıqlarımızı yenə də Aygün görüb. Hamlet deyir ki, mənə oxşayır, mən deyirəm ki, mənə oxşayır. İkimizə də oxşayır, ikimizin də

cəhətlərini götürüb. Çox ağıllı qızdır, təmkinlidir, hər şeyin yerini biləndir, evdardır, ailəsinə yaxşı baxandır.

O biri qızların da xoş cəhətləri var. Daha çox sərbəstlik var onlarda. Ailədir də… Hamı bir yerə yığışanda hamının müsbətini də, mənfisini də özümüz bilirik, onlar bir-birilərini çox istəyirlər.

O gün Aygünün böyük oğlunun bir qızla şəklini görüblər. Bu şəkil qızların arasında həngamə qoparıb. "Bu qız kimdir? Niyə onun əlindən tutub"? Hamısı onu müzakirə edirdi. Xalalardır da… İlkdir də, gözlərinin önündə böyüyən uşaqdır. Hamı həyəcan keçirirdi. Hamlet müəllim dedi ki, eybi yoxdur, qoyun, nolar, dəyməyin uşağa… Mən də bu sözləri yazıb göndərdim onlara, qrupları var, bir-biriləri ilə yazışırlar.



Nə bilim… Mənə elə gəlir ki, Aygün hamımızın bir məsləhət yerimizdir. Çox həyəcan keçirir bir şey olan kimi ailədə. Mən onu sakitləşdirirəm: “A bala, bir şey yoxdur, sakit ol”. Uzaqdadır deyə, hər xırda şeyi oxuyur, baxır, maraqlanır, saytlara baxır, “atam necə hiss edir özünü, nə vaxt yazdılar, filan şeyi haqsız yazdılar, niyə belə oldu”? O gün zəng edib ki, necəsiz, çoxdandır sizdən xəbər yoxdur… Yəni çox həyəcan keçirir, hər şeylə maraqlanan qızdır, bacıları və bizim üçün üçün narahat olur. O biri qızlar da - Aytən, Zeynəb, Ülkər ondan məsləhət alırlar, ağıllıdır, düzgün məsləhət verə bilir. Ona demişəm ki, mən oldum, olmadım, böyük sənsən onların üstündə…

## Gözəl dünyada yaşamaq eşqi

Xəstəliyimi heç zaman özümə dərd etməmişəm. Baxmayaraq ki, bu çox ağır xəstəlikdir, kimyaterapiyalardan keçə-keçə ümid etmişəm ki, bitəcək, yaxşılaşacam. Düşünmüşəm ki, mən nəsə etməliyəm, yaşamalıyam, yaratmalıyam, sabaha doğru irəli getməliyəm. Həyat eşqi, həyat sevgisi məndə hər zaman olub.

Hisslərim cuşa gəlir dənizi görəndə… Çox sevirəm dənizi… Mən tək olmağı xoşlayıram. Çox vaxt istəyirəm ki, öz fikirlərimlə tək qalım, heç kəs mənə mane olmasın. O şeirdə, mahnımızda var ee, “Tək qalmaq istəyirəm”…

Ağır xəstəlikdən, şüalanmadan sonra gedib dənizin kənarında – İstanbulda, Boğazda otururdum və dənizi seyr edirdim. Pis xəstəlik keçirən insan çox bədbin olur. Mən əksinə, nikbin oldum, başladım həyatı daha çox sevməyə. Ətrafa baxmağa başladım, ay Allah, dünya nə gözəldir, sən demə… Başımı o qədər gündəlik həyata, ailəyə, uşaqların böyüməyinə qarışdırmışam ki…

Baxıb, gördüm ki, nə gözəlliklər varmış, təbiət necə gözəlmiş. Gözəl dünyada yaşamaq gözəl deyilmi?! Dəniz adamı uzaqlara aparır, gələcəyi fikirləşirsən, gələcək arzusuyla yaşayırsan. Dənizin sonunu görmürsən axı, üfüq xəttini görürsən, düşünürsən ki, onun arxasında ölkələr,



başqa dənizlər, okeanlar, başqa həyat, başqa insanlar var, dünya çox böyükdür və oraları mütləq görmək lazımdır. Oradakı insanları, onların həyatını, adət-ənənələrini öyrənmək lazımdır.

Quşlara baxırdım, ağ-boz və ya gümüşü rəngdə qağayılar uçurdu orada, nə qədər sərbəstdirlər, gözəldirlər, onların da bir həyatı, dənizin genişliyində pərvazlanan həyat eşqləri var…

Özümü bu fikirlərə kökləmişdim ki, quşların da həyatı maraqlıdır, hər şey gözəldir, ətraf gözəldir. Mənə orada, dəniz kənarında çay gətirirdilər, o çaydan da ayrı cür ləzzət alırdım.

## Hiss canına hopmuşdu...

Amma Hamlet daha çox dağları sevir. Onun dağı sevməyinin də bir səbəbi var. Mən fikirləşirəm ki, maneələri aşmaq, görmədiyini görmək, ucalmaq, yüksəlmək, yuxarılara qalxmaq, dünyanı yüksəklikdən görmək istəyir. Dağı fəth edəndə zirvədən, yüksəkliklərdən aldığı həzzi heç kəsə demir, içində saxlayır. Bir şeyi fəth eləmək - onun xarakterində var da bu! - Hər zaman yeniliyə can atmaq zirvələrə qalxmaq, zirvələri görmək! Mən başqa cürəm, gözəlliyi görmək və onunla sakit yaşamağı sevirəm. Yüksəlmək, zirvəyə qalxmaq fikirləri yoxdur məndə, fərqimiz bundadır.

Bir dəfə biz dağda idik, hər yay Ermənistanın azərbaycanlılar yaşayan yaylasına - dağlara gedirdik. O, sevir dağları, uşaqlıqdan dağları görüb, Dəlidağ var orada, ora qalxırdı. Ətrafına adamları yığdı, getdilər dağa. Axşam oldu, baxdıq ki, şər qarışır, gəlmədilər. Biz də narahat olduq, nigaran qaldıq, ay Allah, bunlara noldu, getdilər dağa, qayıtmaq yoxdur?! Bir də gördüm ki, gəlir, gözlərində sevinc vardı, sanki möcüzə görmüşdü, onun təsiri altında idi…

Sual verirdik, cavab vermirdi, "noldu, harada qaldınız, niyə gec gəldiniz" - deyirdik, heç danışmaq da istəmirdi bizimlə. Özünü itirmiş kimi idi. İndiyədək onun vəziyyəti gözümün qabağındadır – əyni tökülür, paltarları yaş, su…

Yaman gündə qayıdıb gəliblər, amma o zirvəyə qalxıblar, o zirvəni görüblər. Onun sevinci, nəsə yeni bir şeyə nail olmaq hissi o qədər güclü idi ki… Hiss canına hopmuşdu. Mən ona sual vermədim, düşündüm ki, qoy, hələ o hisslərlə davam etsin, yaşasın. Sonra yavaş-yavaş soruşdum ondan, necə oldu, gəl paltarlarını dəyiş, amma daha sorğu-suala tutmadım onu, bildim ki, heç nə danışmaq istəmir, "под впечатлением" deyirlər ee, "под впечатлением" – təsir altında yaşayırdı o məqamda. Dağa çıxmaq axı asan bir şey deyil, nə əziyyətlə, zülmlə gediblər, dağın yaxınlığına atla gedib, atlarını qoyublar orada, piyada, çətinliklə qalxıblar yuxarı... Dönüb geri qayıtmaq da maraqlı imiş...

Sonralar burada bir dəfə də ekspedisiya ilə Şahdağ tərəfə getmişdi. Daim dağa qalxmaq, dağı hiss etmək istəyir, bu adam dağ arzusundadır.



***Haradan alırdı bu yaşamaq enerjisini Nailə İsayeva? Təbii ki, ilk növbədə "Hamletin istəyindən"!***

***"Hamlet istəyir" kəlməsinin arxasında böyük bir İstək, Məhəbbət, Sevgi dururdu. Qırıq güzgü parçalarından başlayan bu İstək kitab-kitab şeirlərə çevrilmişdi, Nailə xanımın musiqi istedadını açmışdı, şerlərdən mahnılar yaranmışdı, mahnılar konsertlərdə oxunurdu və 50 il ətrafında qarşılıqlı Məhəbbət gəzdirən müəlliflərinə alqışlar toplayırdı. İsaxanlı - "Xəzər"-"Dünya" ailələrinin ağır yükü, zəhməti, əziyyəti, qayğıları qarşısında bu Məhəb-***

***bətin daşıyıcıları daxilən heç israf olunmamış-dılar. Çünki Hamletin İstəyi sadəcə dözümlü, bacarıqlı, fədakar bir qadına deyil, uzun onilliklər boyu ilkin həya və utancaqlığını saxlamış, ürkək davranışını qorumuş, İnci çiçəyi kimi zərif ruhlu bir Sevgiliyə ünvanlanmışdı.***

***Solmaz Rüstəmova-TOHİDİ***
***Tarix elmləri doktoru, professor***

# İnsanları sevməmək olarmı?!



Çox güclü sezgi gücüm, intuisiyam olduğunu hiss edirəm. Düşündüklərim də çox zaman baş verir, yerinə yetir. İnsanları da intuisiyamla hiss edirəm, tanıyıram. Arada çaşa da bilirəm. Ona görə də tanıya bilmədiyim, şübhələndiyim insanları yaxın buraxmıram. Vaxt ötdükdən, tanıdıqdan sonra vəziyyət dəyişə bilir.

Natəmiz insanlardan uzaqlaşmağa çalışırıq.

İnsanları sevməmək olarmı, necə sevməyəsən?! Hamını sevirəm, sadəcə içindən müəyyən adamları seçirəm, hansı ki, mənə daha yaxındır, daha əzizdir. Onların təmiz-

liyini, saflığını hiss etdikdən sonra onları yaxın ətrafıma, dünyama buraxıram, daha çox sevməyə başlayıram.

Ümumiyyətlə, hamıya, hər kəsə xoş niyyətim var. İstəyirəm hamı xoşbəxt olsun, xüsusilə, qız uşaqları, qadınlar xoşbəxt olsunlar. Üzdə bildirməsəm də, hər dəfə kimisə görəndə, ürəyimdə deyirəm: - "Ay Allah, ona bir xoşbəxtlik ver, bütün işləri düzəlsin".

Təbii ki, yaxşı adamlar rastına gəlməyəndə, vaxt ötdükdən sonra tanıyırsan ki, bu adam sən deyən deyil, təmiz adam deyil, səni hər zaman sata bilər, o adamla düşmən olmuram. Sadəcə gözümdən itələyirəm uzaqlara...



Həyatımızdan, işimizdən, gücümüzdən çıxıb getməyini istəyirəm. Var belə adamlar, rastıma da gəlib, yəni aşkar etmişik ki, natəmiz insandır. Belə adamlardan uzaqlaşmağa çalışırıq. Amma bizimlə çiyin-çiyinə çalışan, işimizə can yandıran insanlar var.

Mən çox xoşbəxtəm ki, ətrafımda məni sevən, hər zaman yanımda olan, fikirlərimlə, düşüncələrimlə yaşayan, ürəklə, səmimi yanaşan insanlar var. Bu böyük şeydir. Təkcə ailədə deyil, insan öz işində, iş yerində də özünü xoşbəxt hiss etməlidir.





Üzlərinə deməsəm də, ürəyimdə hər zaman bu sözləri deyirəm: - “Ay Allah, nə yaxşı ki, bu insanlar mənim yanımdadır, mənə rast gəliblər”.

Buna görə mən özümü xoşbəxt hiss edə bilərəm.

# Doğma vətəndən uzaqda uzun müddət yaşaya bilmərəm



Mənə elə gəlir ki, ömrümdə başqa ölkədə yaşaya bilməzdim. Hara getsəm də, harada günüm xoş keçsə də, mən öz vətənimi, öz ölkəmi, öz dağlarımızı, dənizimizi o qədər çox sevirəm ki…

Yəni bura mənim vətənimdir. Vətən sevgisi də böyük şeydir. İnsan gərək vətənini də sevməyi bacarsın. Mən burada yaşamışam, bura mənim evimdir sanki, buranın hər üzünü görmüşəm, musiqisini də duyuram, onun istedadlı

insanlarına qiymət verə bilirəm. Ən fəxr etməli yerimiz də, yaralı yerimiz də buradır, çatışmamazlıqlarını da görürük, çatışan şeyləri də, gözəllikləri də görürük. Yaxşısıyla da, pisiylə də, hər tərəfi ilə bizə doğmadır. Bura Dogma Vətəndir. Doğma Vətəndən uzaqda heç vaxt yaşaya bilmərəm. Nə mən, nə də Hamlet!

Baxmayaraq ki, təkliflər gəlir, deyirlər ki, gəlin burada yaxşı yaşayın, uşaqların yanında qalın, bunu edin… Heç vaxt! Nə mən, nə Hamlet - heç birimiz Vətəni burada qoyub, gedib harada isə yaşaya bilməzdik. Ona görə ki, biz vətənimizi hər yerdən çox sevirik. Biz də ona görə ki, burada quruculuqla, təhsillə, maraqlı işlərlə məşğul oluruq. Bu həyatımızdır bizim, biz bununla nəfəs alırırq, bununla yaşayırıq. Nəfəs aldığımız, yaşadığımız mühit bizi yaşadır.



# Xəzərdən Dünyaya gedən yolda

Səhər açılanda fikirləşirəm ki, hə, mən bu gün gedəcəyəm işə, DÜNYA Məktəbinə, bura mənim demək olar ki, birinci evimdir. Məktəb mənə çox doğmadır, ona görə ki, burada daha çox oluram, buranın fikirləri ilə yatıram, dururam, fikirləşirəm, yaşayıram. Bir yerdə oturub müzakirə edirik, çatışan-çatışmayan cəhətlərini fikirləşirik. Yəni biz həyat qurmuşuq burada, bir həyat yaşayırıq və bizi anlayan, bizimlə bərabər yol gedən insanları toplamışıq ətrafımıza. Onlar üçün də burada həyat var, sevinə-sevinə gəlib, sevimli işlərilə məşğul olurlar.

Bunu anlayıram, hiss edirəm, ləzzət alıram. Hər zaman göstərmirəm, demirəm bəlkə, içimdə bunlarla yaşayıram və kənarda həmişə o insanların adını çəkirəm. İnsanlar buranı öz evi hesab edir, işləyir, çalışır, deməli, mənim burada da bir ailəm var. Bu mənim ailəmdir, öz qızlarımla da hər gün görüşmürəm ki?! Onlar mənim ailəmdir, bura da mənim ailəmdir.

Vaxtilə mən XƏZƏR Universitetində daha çox olmuşam, universitet doğmadır, əzizdir, biz oradan başladıq təhsil sahəsindəki həyatımıza, müəyyən işlər gördük, hələ kiçik olan zamanlarında oradakı kollektivlə yaxın oldum, doğma oldum. Maşallah, indi universitet və oradakı kollek-

tiv çox böyüyüb, genişlənib. Xəzər Universiteti bizim böyük, Dünya Məktəbi də kiçik övladımızdır. Hamlet müəllim hər yerdə universitetdən danışarkən, mütləq yanında fəxr etdiyi Dünya Məktəbinin adını çəkir. Baxmayaraq ki, bizi bəzən tənqid də edir, amma o da məktəblə fəxr edir.

Tənqid də vacibdir, çünki tənqid olmasa, inkişaf etmək mümkün deyil. Amma o, hər yerdə məktəbin adını uca tutur, haqqında böyük fərəh hissi ilə danışır.

Biz bu məktəbi açanda 4-5 nəfərdən ibarət kiçik sinfimiz vardı, yerimiz yox idi, Xəzər Universitetinin binasında bir otağa sığınmışdıq.

Məktəb yavaş-yavaş böyüdü, sonra başqa binaya, daha sonra digər binaya köçdük. Nəhayət ki, öz binamız, kam-






pusumuz oldu və burada şərait, mühit yaxşı olduğu üçün verdiyimiz təhsil çox müasir və çox keyfiyyətli olduğu üçün bu illər ərzində insanlar bizə inandılar.

2018-ci ildə bizim 20 illiyimiz qeyd olunacaq. Az müddət deyil, bu illər ərzində biz bir yerdə yaşadıq, böyüdük, möhkəmləndik, bərkidik, gözəl işlər gördük. Doğrudur, çox vaxt özümüzdən narazıyıq, deyirik ki, bəlkə filan iş daha yaxşı olardı… Amma müqayisə edəndə görürük ki, çox yaxşı işlər görmüşük. Mənim ətrafımda çoxlu insanlar çalışır və hər birinin ürəyimdə öz yeri var, bunu özləri də hiss edirlər. Hamı mənim üçün doğmadır, hər həsə böyük hörmətim var.

# Xoşbəxtəm



Xoşbəxtəm! Müəyyən dərəcəyə çatmışam, həyatda öz mövqeyim var. Qurduğum həyatdan məmnunam. Nəyim varsa, ona özümün və ailəmin zəhməti ilə çatmışam. Zəhmət çəkməsəydik, bu günləri də görməzdik. Bunun özü də xoşbəxtlik gətirir insana. Dünyada nə istəyirsən ki?! İnsanlar var, deyirlər ki, bu da olsun, o da olsun... Olduğu ilə kifayətlənmək özü də xoşbəxtlikdir, insan gərək şükür eləsin!

Mən ömür boyu bu hisslərlə yaşamışam. Yəni cavanlıqda da ehtiyacım, problemlər olan vaxtdan bəri də həmişə demişəm ki, şükür sənə ay Allah! Allah kərimdir! Bax, bu söz həmişə mənim dilimdə olub. Məni rahatladıb, heç kəsdə gözüm olmayıb. Heç vaxt deməmişəm ki, kimsə niyə məndən artıqdır, onun filan şeyi var, məndə yoxdur. Demişəm

ki, Allah kərimdir, olacaq və olanla kifayətlənmişəm, sevinmişəm.

Xoşbəxtlik elə budur da, gərək için rahat olsun ki, sən heç kəsə xəyanət, pislik, paxıllıq etmirsən. Bu xoşagəlməz sifətlər insana xoşbəxtlik gətirmir. Əksinə, bədbəxtlik gətirir, ömür boyu insan öz içilə mübarizə edir.

Həyat mürəkkəb olduğu kimi, həm də sadədir. Yəni insan öz həyatını mürəkkəb də edə bilər, sadə də... Pis hisslərlə yaşasan, həyatın mürəkkəb ola bilər. Rahat insan həmişə özünü xoşbəxt hiss edə bilir.

Xoşbəxt məqamlar da olur, bir az problemli məqamlar da olur. Həyatda hər şey olur...

Amma ümumiyyətlə götürəndə, mən, təbii ki, xoşbəxtəm. Əgər mən yaşayıramsa, bu gözəllikləri görə bilirəmsə, bir iş görüb, nələrəsə nail oluramsa, insanları xoşbəxt edə bilirəmsə, bu mənə xoşbəxtlik gətirir.

Təbiəti, dağları, dənizi görəndə sevinirsənsə, bu xoşbəxtlikdir ...

Musiqini dinləyəndə sevinirsən, dünyana daxil edirsən, onunla yaşayırsan, bunun özü xoşbəxtlikdir.

Sağlamsan, hər gün ayaq üstəsən, hər günlə yaşayırsan, xoşbəxtlikdir.

Mənim üçün xoşbəxtlikdir bu!

## İnciçiçəyi uşaqlıqdan qalan bir duyğudur...

Mən uşaqlığımı Qubada keçirmişəm, yayda 3 ay biz Qubada nənəmin yanında qalırdıq. Orada jasmin, "landış" (inciçiçəyi) və toppuz güllər olurdu - ağ, yumru, bir də yasəmən. Bunların hamısı bir zamanda olurdu və bitirdi. "Jasmin" deyirdik o vaxt, ağacda bitir, ağ-ağ, xırda güllər. Onun da ətri dəhşətdir, çox gözəl qoxuyur. Yazı tərənnüm edir bu güllər. Qışdan sonra yaza girirsən, ılıq hava, nə istidir, nə soyuq. İlıq, gözəl, günəşli hava... Və o güllərin ətri adamı bihuş edir.



Çox sevirəm gülləri. Qızılgüllərə açmamış halında tamaşa etməyi sevirəm. Ən sevdiyim şeylər dəniz, güllər və musiqidir. Dənizə təklikdə baxmağı sevirəm, çiçəklərə, gözəl güllərə vurğunam, inciçiçəyini ona görə sevirəm ki, uşaqlığımı xatırladır, yazı tərənnüm edir, əhval ruhiyyəni qaldırır, özü də, adı da incədir. "Landış", yəni inciçiçəyi Rusiyada daha çox olur, bizdə az olur o güllər, ona görə də hər adam onları tanımır. Az olur, amma çox gözəl olur.

Yasəmənin nədənsə, ağ rəngini çox sevirəm, nadir olur, bir də pion güllərini xoşlayıram, "kitayskaya roza" – çin qızılgülü deyirlər onlara. Görüntüsünü çox sevirəm, şax güllərdir. Bunların hamısı yazın, may ayının gülləridir. Mən may ayında anadan olmuşam, bəlkə bununla bağlıdır.

Yasəmən ağacını sevirəm. O ağacı qoxlamağı sevirəm. Ətri xoşuma gəlir. Ağ yasəmən çox gözəldir, həm özü, həm də qoxusu. İnciçiçəyini, bu şahanə gülü, ümumiyyətlə, necə deyərlər, sevməmək mümkün deyil.

Mən həmişə güllərlə danışıram, evdə, bağda, çöldə onlarla söhbət etməkdən xoşum gəlir. İnciçiçəyinə deyərdim ki, sən mənim balaca balamsan, sən nə gözəlsən, sən necə incəsən, mən səni o qədər çox istəyirəm ki... Necə ki, balaca nəvəmi çox sevirəm, bax o inciçiçəyi də elə bil bir balaca körpədir, çox istəyirəm.

***"İnciçiçəyi" filminə verdiyi müsahibə.***

***Yadımdadır, Nailə xanım "Təklik" mahnısını yazdı. İfa üçün mənə müraciət etdi. Mahnı məni qoynuna aldı, orada mənim əhvalıma çox uyğun olan "yoruluram" ifadəsi vardı. Mahnını oxuyanda "Axı mən yoruluram" ifadəsini əlavə etməkdən özümü saxlaya bilmədim.***

***Flora Kərimova***
***Müğənni, Xalq Artisti***

# O günləri unuda bilmərəm

Mən İsaxanı 41 ildir ki, tanıyıram. Onların evinə gəlin gedəndə İsaxanın 9 yaşı vardı. Buradan, Bakıdan düz Gürcüstana gedib-çıxdım. Qatar Gürcüstana səhər çatdı. Məni evə gətirdilər, gəlin olaraq üzümə duvaq saldılar, əyləşdim. Və o günü xatırlayıram ki, balaca-balaca oğlanlar ətrafıma yığışdılar. Bir də gördüm ki, beş nəfər oğlan uşağı ətrafıma toplaşaraq mənə maraqla tamaşa etməyə başladılar.

Mənim üçün bunları danışmaq çox çətindir, bunları danışanda çox kövrəlirəm, əziz günlərim bu uşaqlarla keçib. Heç zaman o günləri unuda bilmərəm. Çox xoşbəxtəm ki, bu ailədə, bu uşaqlarla tanış oldum və onlar mənim yanımda böyüdülər.

İsaxan çox maraqlı uşaq idi… Hamlet Moskvaya getdi və mən kənddə bu ailənin, uşaqların içində bir ay tək qaldım. Aralarında böyükləri Rüfət idi. Mən İsaxanın məktəbdən gəlməyini səbirsizliklə gözləyirdim, ona görə ki, qapıdan içəri hay-küylə girirdi, çox zarafatcıl idi.

Yadımda maraqlı epiziodlar qalıb, lakin danışmayacam. O, qonşuları, gülməli adamları yamsılayırdı.

***Bizim kəndimizdə qonşuluğumuzda yaşayan bir kişinin maraqlı yerişi vardı. Yeriyəndə bir az qabağa əyilir, əllərini sürətlə hərəkət etdirərək yeriyirdi. Mən də uşaq-***

***lığımda o kişinin yerişini parodiya edirdim. Bu, Nailənin çox xoşuna gəlirdi və indi də hərdənbir mənə "bir Haqverdi kimi yeri görüm" deyirdi. (İsaxan)***

Dərsə hazırlaşanda necə şeir oxuyur, necə öyrənirdi… Bunların hamısını indiyədək xatırlayıram və o günləri heç zaman unuda bilmirəm. Ən şirin, ən əziz günlərim onların uşaqlıq zamanlarıdır. Onlar gözümün qabağında böyüdülər, sonra İsaxan universitetə qəbul olundu və Bakıya gəldi. Yenə də mənim yanımda yaşadı, universiteti oxuyub-bitirdi.

Çətin günlərimiz, sevincli günlərimiz olub, hər zaman bir yerdə olmuşuq. İsaxan mənim üçün qardaş olub, onların hamısı mənim qardaşlarımdır, indi də düşünürəm ki, nə olursa, olsun, mənim qardaşlarım var. Onlar hər zaman mənə arxa-dayaqdırlar.

Bəzən olur ki, gəlinlər ailədən, qayınlarından şikayət edirlər. Mən İsaxandan və onların heç birindən heç vaxt inciməmişəm. Çox xoşbəxtəm ki, İsaxan daxil olmaqla mənim belə qayınlarım var.

***Nailəxanim İsayevanın***
***İsaxan İsaxanlının 50 illik yubileyindəki çıxışı***
***(15 fevral, 2012-ci il)***

# Qayğıkeş mələyə notlar...

*... "Yadındadır? Son günlərdə xəstəxanada olanda yanına gəlmişdim. Bir az söhbət etdik. Birdən "sən balaca vaxtı bir şeir oxuyurdun e, "Cütçü", heç qulaqlarımdan getmir" dedin (sənin bu şeiri tez-tez yada saldığını mənə Hamlet də demişdi). Mən də ayrılanda "tezliklə ayağa qalx, evə gəl, mənim sənə oxuyacağım və göstərəcəyim şeylər var" dedim. Əzizim Nailə, sənə evdə oxuya bilmədiyim o "Cütçü" şeirini indi, burda – məzarının başında göz yaşları içində oxumaq istəyirəm:*

*Çıxdı günəş, doldu cəhan nur ilə,*
*Cütçü sürür tarlada cüt şur ilə.*



***Atlar, öküzlər kotana güc verir,***
***Gah yürüyür, gah yıxılır, gah durur…***

***Xoşuna gəldimi? Bilirəm ki, bəyəndin, şeiri dinlədikcə qəlbindən gələn təbəssümlərini hiss edirəm…***

***… Yadindadir? Yox, yəqin ki, yadında deyil, çünki o sözləri sən o qədər təbii, o qədər adi bir fikir kimi demişdin ki, sənin üçün onu xüsusi yadda saxlamağa nə lüzum var ki?! Amma mənim üçün o an unudulmazdır! 1981-ci ilin yay ayları idi. Tələbə idim, 3-cü kursda oxuyurdum. Mərziyə mamam (biz tərəflərdə atanın bacısına, yəni bibiyə, əsasən, mama deyə müraciət edirlər) bizə gəlmişdi, bizim Əhmədlidəki evimizə. Oturub ordan-burdan söhbət edirdik. Birdən Mərziyə mamam "Allah da sənə bir oğul vermədi ki…" deyə bir az şikayətləndi. O vaxt sənin "mənim oğlum var, özü də bax burda oturub, görürsən, yanımdan əl çəkmir" deyərək, məni sinənə şəkib başımdan öpdüyün o anı heç vaxt unutmadım"...***

***İsaxan İsaxanlı***
***XƏZƏR Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru***



***Bu yazılar vasitəsilə səyahət etmək istədik... Onun mənalı, müdrik ömrünün sirrinə, sehrinə varmaq istədik.***
***Və… İNCİÇİÇƏYİ HEKAYƏSİ yarandı...***
***Zərif, həzin, kövrək, incə İNCİÇİÇƏYİ!***
***Nə yaxşı ki, bu dünyadan Nailəxanım gəlib-keçdi...***
***Neçə-neçə ömürlərdə, talelərdə xeyirxahlığının izi var, neçə-neçə reallaşan arzularda böyük ürəyinin, alicənab duyğularının nəfəsi var...***

# *İkinci fəsil*



# *Nailəxanımın məktubları haqqında*
# *(Hamlet İsaxanlı)*

Nailəxanımın mənalı həyat yolu "Son görüş olmayaydı... Nailəxanım İsayeva xatirələrdə" adlı kitabda öz əksini tapmışdır (Xəzər Universiteti Nəşriyyatı, 2022). Əlbəttə, Xəzər Universiteti və Dünya Məktəbi kimi tanınmış təhsil-elm-mədəniyyət ocaqlarının həmtəsisçisi, ciddi və eyni zamanda qayğıkeş rəhbər olmuş, pedaqoq və musiqiçi kimi yaradıcı fəaliyyət göstərmiş, dünyanı gəzib-görmüş, geniş dünyagörüşünə malik bir insanın həyatı və şəxsiyyətini tam təsvir etmək mümkün deyil. Bu baxımdan hər yeni məlumat, yeni sənəd, yeni xatirə insanın həyat yolu barədə, kiçik də olsa, yeni bir söz deyir.

Mən bir elm adamı kimi ilk gənclik illərimdən başlayaraq səfərlərə getmişəm, oxuyub-öyrənmiş, konfranslarda iştirak etmiş, universitetlərdə tədqiqat aparmış və dərs demişəm. Nailə xanımla ilk tanış olduğumuz və tanışlığımızın sevgiyə döndüyü günlərdən sonrakı hər uzun müddətli səfərim zamanı onunla məktublaşmışıq.

Çağdaş dünyada, bir-birindən çox uzaqda olan insanlar bir-biri ilə anında əlaqə saxlayır, mobil telefonla zəng edir, telefon vasitəsilə bir-birini eşidib, görüb söhbət edə bilirlər. İnsanlar bir-birindən anında hal-əhval tutmağa o

dərəcədə alışıblar ki, mobil telefonu əldən qoymurlar. Bu anında xəbərləşmə yeni dünya fenomenidir. 30-40 il əvvəl bir-birindən uzaqda olan insanlar telefon məntəqələrində danışıq sifariş etməli olur və ya telefon-avtomat deyilən kabinələrdən zəng etməyə çalışırdılar. Bu, çox zaman yorucu iş olurdu. Minillər ərzində insanlar bir-biri ilə əlaqəni məktub göndərmək vasitəsilə saxlamış və bu zaman böyük məsafələri, o cümlədən məktubları daşımağı ata minməklə, həmçinin suda üzən gəmilərə minməklə qət etmişlər. Məktublar aylarla, bəzən illərlə yol getməli olub. Sürətli nəqliyyatın – dəmiryolu qatarlarının, yerdə şütüyən minik maşınlarının və nəhayət uçan təyyarələrin meydana çıxması ilə məktublaşma böyük sürət qazanıb, məktubun yetişmə zamanı günlərlə, uzağı bir-iki həftə ilə ölçülüb.

İnsan yaxınları ilə ünsiyyətsiz yaşaya bilmir. Məktub göndərmək və məktub gözləmək həyatın zəruri bir parçasıdır. Çağdaş dövrdə məktub şəxsi kompüter, internet və mobil telefon vasitəsilə bir anda göndərilir və ünvan sahibinə çatır. Yaxın keçmişimiz kağız vərəqlər üzərində yazılan məktub dövrü idi...İndi insanlar əvvəlki dövrlə müqayisədə qat-qat çox məktub yazırlar, hər gün e-mail və mobil telefon vasitəsilə çox məktub alıb-göndərirlər. Amma, keçmiş kağız məktub dövründəki məktublar daha qiymətli, çox zaman daha həcmli idi, onlar daha çox sevindirirdi, onları böyük intizarla gözləyirdilər...

Nailə xanımın mənə yazdığı məktubların bəziləri tam mətni ilə, digərləri yarımçıq şəkildə və ya fraqmentlərlə qalmış, bir neçəsi isə qalmamışdır.

1969-cu ilin yayında mən tələbə ikən Gəncə şəhərində iki aylıq (56 günlük) hərbi təlimdə olmuşam. Aramızda yeni yaranmış könül bağı təbii olaraq məktublarda öz əksini tapmışdır. O zaman Nailə xanımdan üç məktub almışam, çox təəssüf ki, o məktublar qalmamışdır. Amma o günlərdə “Gəncə lövhələri və əsgərlik həyatı” adı altında üç dəftər - xatirələr yazmışam və orada həmin məktubları alarkən keçirdiyim hiss-həyəcanı qələmə almışam və nə yaxşı ki, həmin məktublardan alıntılar etmişəm. Mənim xəttimlə kiril əlifbasında yazılmış o alıntıları-fraqmentləri aşağıda olduğu kimi verirəm. Bu məktubların daha yaxşı anlaşılması üçün həmin xatirədə yazdığım kiçik şərh və qeydləri də mətnə daxil etdim.

1974-1975-ci illərdə Lomonosov Moskva Dövlət Universitetində elmi-tədqiqatla məşğul olurdum. 1973-cü ildə dissertasiya müdafiə edib elmlər namizədi (PhD) adı almışdım. Müdafiədən sonra bir elm ocağında məqsədli elmi araşdırma aparan şəxsə Qərb elm-təhsil sistemi dilində postdoktor tədqiqatçı (postdoctoral researcher) deyirlər. Bu dövrdə Nailə xanımdan aldığım 5 məktubdan üçü tam əlimdədir, ikisi isə yarımçıqdır, birinin sonu, digərinin əvvəli də, sonu da yoxdur.

1991-1992-ci tədris ilinin böyük hissəsini Türkiyədə keçirdim. O zaman Nailə xanımdan üç məktub almışam, məktublar tam mətni ilə əlimdədir. Bütün bu məktublarda "səndən ötəri çox darıxıram və ya çox darıxırıq" kimi ifadələr xüsusi vurğulanır. Təbii ki, mən də uzaqda olanda Nailə xanım, uşaqlar və vətən üçün çox darıxırdım. Nailə xanımın əlimdə olan sonuncu məktubu rusca yazılmış və 7 yaşı tamam olması münasibətilə nəvəmiz Canana ünvanlanmışdır.

Beləliklə, hazırda Nailə xanımın yazdığı mənə məlum olan 12 məktubdan 7-si tam mətni ilə qalmış, 5 məktubdan isə müəyyən hissələr qalmışdır. Bu yazıya 4-12-ci məktubların latın əsaslı əlifbaya keçirdiyim mətnləri ilə yanaşı, maraq üçün Nailə xanımın öz xətti ilə (kiril əlifbasında) yazılmış nümunələr də daxil etdim.

**Prof. Hamlet Isaxanlı**

***Məktublar adətən yaxın insana ünvanlansa da, yaxın və uzaq oxucu üçün də maraq yarada bilər.***

***Həzin nəğməyə çevrilən bu sətirlərdə nələr yoxdur?!***

***- Sevgi, həsrət, işvə, naz, sədaqət, ana, insan, qayğı...***

# *Sənə deməmişdimmi saçlarını mənim üçün saxla?!*
# *1-ci məktub*

("Gəncə lövhələri və əsgərlik həyatı"ndan götürülmüşdür)

Nəhayət, çoxdan intizarla gözlədiyim məktub gəlib çıxdı (17.VII.69). Konvertin üstündə tanış xətti gördükdə məni xoş bir təsir bürüdü. Elə bil bədənimdən isti bir cərəyan keçdi. Mənim ağıllı və qəşəng Nailəm! Əlbəttə, çox adam inanmaz ki, mən bu iki vərəqəlik məktubu azı 13-14 dəfə oxudum. Ümumiyyətlə, sevincimin həddi-hüdudu yox idi. Ancaq əsasən rusca yazılmış bu məktubdakı bəzi sözlər mənə birtəhər görünürdü:

"İşim çox çətin idi, hər şeyi özüm etməyə məcbur idim, xörək hazırlayırdım və digər təsərrüfat işləri ilə məşğul olurdum və buna görə vaxtım qalmırdı".

*Qeyd*. Bu sözlər rusca yazılmışdı.


„Мне было очень трудно, приходилось всё самой делать, готовила обед и занималась разными другими хозяйственными делами и потому не было времени".

Cavab məktubumda onun bu sözlərini "hə, bildim, çox vacib işlərə görə məktub yazmayıbsan" deyə zarafatla özünə yazdım.

Mənə vağzalda Göyüş müəllimlə rastlaşdığımızı, Göyüş müəllimin diqqətlə ona baxdığını yazmışdı. Fəxrəddin haqqında yazdığı sözlər məni sevindirdi: “Fəxrəddin məni gözdən qoymurdu (molodets)”. Sağ ol, əmioğlu!

Məktubdan daha bir parça: “Məgər mən sənə deməmişdimmi öz gözəl saçlarını mənim üçün saxla ki, mən onlardan şinyon düzəldim. Ay səni, yaxşı oğlan deyilsən! Mən öz saçlarımı hələ kəsməmişəm, sənin gəlişini gözləyirəm, sonra kəsəcəm. Yaxşı?”

*Qeyd.* Bu sonuncu abzas (sətirbaşı) da məktubda rusca yazılıb.

*Qeyd.* Şinyon (fransızca: chignon) qadın saçlarının başın arxa tərəfində yığılmasıdır: bu taxma saçlar vasitəsiə edilə bilər.


„Я тебе разве не говорила чтобы ты свои прекрасные волосы сохранил для меня, чтобы я сделала из них шиньон? Ах ты не хороший мальчик! Свои волосы я ещё не порезала, жду твоего приезда, а после порежу, Хорошо?“

## Əllərimi yuxarı qaldırıb yağışa sevinəydim
## 2-ci məktub

(“Gəncə lövhələri və əsgərlik həyatı”ndan götürülmüşdür)

4 avqustdan 5 avqusta keçən gecə. Gecə yarı Elmxan “yoldaş Əsgərli”nin məktubunu mənə verdi. Hamı yatandan sonra məktubu ləzzətlə oxumağa başladım. Sağ ol, Nailə! Məktubun əsas hissəsini əməlli-başlı azərbaycan dilində yazmışdı.

Budur bəzi parçalar:

“...Nə yaxşı olardı bir az, “bir damcı” yağış yağaydı, mən də dayanaydım həyətdə, əllərimi yuxarı qaldırıb yağışa sevinəydim. Görürsən, yavaş-yavaş yazıçı oluram. Deyəsən səndən keçir”.

“Bilirsən, bir neçə dəfə səni yuxuda görmüşəm, özü də ki, pis görmüşəm, yəqin hər şey yaxşı olacaq, axı yuxunu tərsinə başa düşmək lazımdır”.

“Mejdu proçim, şəkildə amerikanski soldatlara oxşayırsan. Özü də ki, əlində tutduğun jurnaldakı qıza çox baxma, yoxsa mən qısqanıram. Bildinmi?!”.

“Gərək bir şəkil də papaqsız çəkdirəydin, axı mən sənə demişdim, bir sənin keçəl başına baxardım və saxlayardın na pamyat` ee o soldatskix qodax. Ex tı!”

"Sən məni bağışla, yəqin ki, Azərbaycan dilində yazanda çox səhv buraxıram. Nu niçeqo, pravda? Samoe qlavnoe ya znayu, çto tı menya ponimayeş`" və s. və s.


„... Нә јахшы олајды бу аз, „бу дамчы" јағыш јағајды, мән дә дајанајдым һәјәтдә, әлләрими јухары галдырыб јағыша севинәјдим. Ҝөрүрсән, јаваш-јаваш јазычы олурам. Дејәк сөзә кечәк:
„Билирсән бир нечә дәфә сәни јухуда ҝөрмүшәм, Өзүдә ки, пис ҝөрмүшәм, јә'ни һәр шеј јахшы олаҹаг, ахы јухуну тәрсинә баша дүшмәк лазымдыр."
„Между прочим шәкилдә американски солдатлара охшајырсан. Өзүдә ки, әлиндә тутдуғун журналдакы гыза чох бахма, јохса мән гысганырам. Билдинми!?"
„Кәрк бир шәкил дә папаг'сыз чәкдирәјдин, ахы мән сәнә демишдим, бир сәнин кечәл башына бахардым вә сахлајардым на память ее о солдатских годах. Эх ты!"
:
„Сән мәни бағышла јә'гин ки, азәрбајҹан дилиндә јазанда чох сәһв бурахырам. Ну ничего правда? Самое главное я знаю что ты меня понимаешь." вә с. вә с.

*Qeyd*. Göründüyü kimi məktubda bəzi rusca ifadələr işlədilmişdi. "Между прочим" (öz aramızdır), "На память ее о солдатских годах. Эх, ты!" (Əsgərlik illərində ondan xatirə kimi. Ay səni!), "Ничего, правда? Самое главное я

знаю, что ты меня понимаешь” (Eybi yoxdur, elə deyilmi? Ən başlıcası mən bilirəm ki, sən məni başa düşürsən).

Ümumiyyətlə, səmimi yazılmış bu məktub məni çox sevindirdi, mənə xüsusi zövq verdi. Elə bil əvvəlki məktubuna görə giley-güzarımı eşitmişdi. Mənim Nailəm!...

# *Tez gəl, sənsiz çox darıxıram*
## *3-cü məktub*

(“Gəncə lövhələri və əsgərlik həyatı”ndan götürülmüşdür)

24 avqust. Günortadan sonra, saat 4-ə yaxın poçtalyonun səsini eşitdim: “İsayev Hamlet, sənə məktub var”. Təəccübləndim, axı məktub kimdəndir? Nailə bilir ki, bu günlərdə əsgərliyimiz bitir, evə gedəcəyik, bu səbəbdən o, məktub yazmaz. Bəs başqa kimdən ola bilər məktub? Məktubun üzünə baxan kimi tanış xətti tanıdım: yoldaş Əsgərlidəndir! Çox sevindim, sonra isə bir az təşvişə düşdüm, bəlkə nəsə olub, ona görə tez-tələsik məktub yazıb? Hətta ağlıma axmaq bir fikir də gəldi ki, yəqin... Öz-özümə məktubun “məzmununu” düşünməyə başladım: “... Hamlet, məni bağışla”, yox, rus dilində: “... Гамлет, прости меня, другого выхода не было (Hamlet, məni bağışla, başqa yolum qalmadı). Məni unutmağa çalış, mən isə səni unutmağa çalışsam da, tez unuda bilməyəcəm. Ты - мой послушный и умный мальчик (Mənim sözəbaxan və ağıllı oğlanım), mən sənə çox hörmət edirəm. Ancaq ... olmadı... Bacarsan, bizim həyətdə yaşama. Axı, artıq bu hər ikimiz üçün ağırdır. Прощай, мой?!... Гамлет!... (Əlvida, mənim?!... Hamletim!...)”.

Bu dəhşətli fikri başımdan rədd etmək üçün tez məktubu açdım. Bu yenə mənim və ... yalnız mənim Nailəm idi. Onu başa düşdüm, darıxmışdır; yaxşı başa düşürəm, çünki darıxmaq hissi məni lap tez-tez bürüyür.

Budur məktubdan bəzi sətirlər:

“... Mənim ruhum hər axşam gəzməyə çıxmağa adət etdiyinə görə axşamlar evdə otura bilmirəm, anamı da götürüb bulvara gəzməyə çıxıram və ya kinoya gedirik. Görürsənmi mən necə də yaxşı qız olmadım”.

“Hər səhər yuxudan qalxıram və vərdiş etdiyimə görə sizin qapıya baxıram, amma təəssüf ki, səni orda görmürəm və çox kədərlənirəm”.


„...А так как моя душа привыкла
каждый вечер ходить гулять, поэтому
по вечерам я не могу сидеть дома,
беру маму и иду гулять на бульвар
или же в кино. Видишь какая я
не хорошая девочка стала".
„Каждое утро я встаю и по при-
вычке смотрю на ваши двери, но к со-
жалению тебя там не вижу и мне
становится очень грустно".
„Интересно в этом году ты будешь
здесь жить или переедешь куда-нибудь.
Хотелось бы чтобы никуда не переез-
жал. Ну что еще тебе написать.
Одним словом скорее приезжай я
очень скучаю по тебе"...

“Maraqlıdır, sən bu il burda yaşayacaqsan, ya başqa yerə köçəcəksən? İstərdim ki, heç yerə getməyəsən. Yaxşı, daha nə yazım sənə. Bir sözlə, tez gəl, sənsiz çox darıxıram”.

*Qeyd.* Məktub orijinalda rusca yazılıb.

Mənim Nailəciyim, bilirsən mən səndən ötəri necə darıxıram? Bunu təsəvvür belə edə bilməzsən...

*Qeyd*. Göründüyü kimi, bu 3 məktubun yazılma tarixi deyil, mənə çatdığı tarixlər göstərilir.

# Özünə qulaq as, çox ora-bura qaçma

## 4-cü məktub

Mənim Hamletim, salam!

Əvvəla sənin məlumun olsun ki, səndən ötəri çox, həddindən artıq darıxmışam. Necə deyərlər, sənsiz heç yaşaya bilmirəm.


Мәним Һамлетим, салам!
Әввәла сәнин мәлумун олсун ки, сәндән
өтәри чох, һәддинән артыг дарыхмышам.
Неҹә дејәрләр, сәнсиз һеч јашаја билмирәм.

Deyirəm bu 5 ay tez gəlib - getsəydi ürəyim dincələrdi. Sənin bura gəlməyini səbirsizliklə gözləyirəm. Aygün də səndən ötəri çox darıxır. Dünən axşam ona deyirəm: “Aygün hamısı mənimdir, Hameşə vermirəm”. O deyir: “ Yox, mama, bir az Hameşə də ver”.


Ајҝүн дә сәндән өтәри чох дарыхыр.

Hamlet, Ayın 4-də Qətiş, Aygün və mən qatara minib kəndə getdik. Orada 3 gün qaldıq, 8-də Bakıda olduq. Kənddəkilər hamısı yaxşıdırlar. Çox yaxşı oldu ki, getdim, hamı söyündü. Bir gün Sabir əmigilə, bir gün Mərziyə ma-

mamgilə qonaq getdim. Xanımın da oğlu oldu, onun da yanına xəstəxanaya getdim.


Гәнҹәлиләр hамысы јахшыдырлар. Чох јахшы олду ки, кетдин, hамы сөјүндү.

Hamletim, Aygünün paltosunun qolu qazda yanı, kombinezonu da çox balacadı, ona görə gələndə ona necə olur-olsun bir palto al. Özü də kimi görür hamıya elan edir ki, paltomun qolu yanıb, kombinezon da balacadır.


Өзү дә кими көрүр hамыја елан едир ки, палтомун голу јаныб, комбинезон да балаҹадыр.

Hamlet, çox söyündüm ki, sənə yataqxanada yer verirlər. İndi bir az dincələrsən, yeməyinə fikir verərsən. Canın-başın necədir? Özünə qulaq as, çox ora-bura qaçma.


Ҹанын-башын неҹәдир? Өзүнә гулаг ас. Чох ора-бура гачма.

Bizdən nigaran qalma. Pulumuz var. Maman 50 manat vermişdi gələndə. Bu səfər məni çox yaxşı qarşılamışdılar. Mən də gedəndə mamana xələt, alt paltarı və s. şeylər almışdım.

Hamlet hərbi bileti Alya göndərir, ona görə ki, qatar saat 5:30-da yola düşür, mən də evdə qızlara deməmişəm ki, Aygünün dalınca getsinlər. Saat 5-də gərək Aygünün dalınca gedəm. Tələsik olduğuna görə heç bir şey göndərə bilmirəm. Səninlə diplom işi yazan oğlan Moskvaya getməlidi bir-iki günə. Onunla istəyirəm sənə bir az meyvə göndərəm. Bu gün Alya hərbi bileti göndərər, sabah mən sənə teleqram vuraram və danışaram.

Hamlet, evə, kəndə məktub yaz. Rüfət yenə başını itirib, oxumaq istəmir, mamanla kobud danışır. Kontrol işi geri gəlib, ona görə ki, çoxlu orfoqrafik səhv buraxıb. İş özü düzgün yazılıb, mən yazdığımdan düzgün köçürməyib və orfoqrafik səhv buraxıb. Səhvlərin hamısını düzəltdim və dedim ki, köçür, yenidən göndər. Nə qədər dedim, yalvardım, Mərziyə mama, Muxsara mama – hamımız yalvardıq, nələr dedik, deyir yox, nahaq yazma, onsuz da oxumayacağam, imtahana getməyəcəm. Bax belə axmaqlıq edir. Heç kəsin sözünə qulaq asmır. Maman da mənə yalvarıb ki, Rüfətin kobudluğundan sənə yazım. İşə hələ düzəlməyib, söz veriblər ayın 10-dan sonra sənədlərini götürəcəklər və 1-də işə gedəcək; deyirlər pis iş deyil. Makbet də işləyir. Oktay da gündə boş-boş Qardabana gedib-gəlir, avaraçılıq edir. Bir sözlə, onlara məktub yaz, bir az təpin...


Һамлет, евә кәндә мәктуб јаз.
Охај да бунда бәш-баш Тардатаны
кедиб-кәлир, аваралығыны едир.

*Hamletim, bu qədər.*
*Səni bərk-bərk öpürəm.*
*Tez gəl, darıxırıq.*
*Sənin və <u>həmişə</u> sənin Nailən*
*11/XII – 1974*


Сәни бәрк-бәрк өпүрәм.
Тез кәл, дарыхырыг.
Сәнин вә <u>һәмишә</u> сәнин
Наилән
11/XII. 1974 г.

*Qeyd.* Burada və sonra rast gəlinən, fikri vurğulamaq məqsədi daşıyan sətiraltı xətlər Nailə xanımındır.

*Qeyd.* İlk qızımız Aygün uşaq vaxtı mənə "Hameş" deyirdi.

*Qeyd.* Məktubda adları çəkilən şəxslərdən Alya Nailəxanımın bacısı, digərləri mənim yaxın qohum-qardaşlarımdır.

*Qeyd.* "Sevindi" deyil, kəndimizdə işlənildiyi kimi "söyündü" yazılıb.

# Deyirəm kaş Hamlet burada olaydı
## 5-ci məktub

Salam, mənim Hamletim! Səndən ötəri şox darıxıram. Hamlet, bildiyin kimi xəstəxanadan çıxıb Aygünümüzlə birlikdə evə gəldim. Səhərisi günü Qətibə kəndə getdi. Papam bizimlə qalır, bizə çox kömək eləyir. İndi-indi mən özümə gəlməyə başlayıram. Səhərlər başım 1-2 saat agrıyırdı, iki gündür ki, ağrımır. Aygünlə birlikdə çox öskürürük, mənim öskürəyim deyəsən qurtarmaq üzrədir, Aygününkü isə hələ də qurtarmır. Evdən bayıra çıxmırıq.

Hər gecə Aygünü müalicə edirəm, dərman verirəm, ancaq ona baxmayaraq öskürəyi tamam qurtarmayıb, xüsusən yatanda başlayır. Aygünü yaxşı yedirdirəm, bir xeyli yaxşılaşıb. Hər gün axşam yeməyinə görə ona bir yekə 5 yazıram (qırmızı pasta ilə) və divardan asıram (Aygünün dəvəsinin yanında) və vərəqin başında yazıram Aygünün 5-ni. O, buna çox sevinir, tez-tez divara baxıb deyir: “Aygünün dəvəsi, Aygünün beşi”. Mən də deyirəm ki, sən də Hameş kimi əlaçısan, o, buna çox sevinir. Hər yarım saatdan bir səndən danışırıq.


Салам, мәним Һамлетим!
Сәндән өтәри чох дарыхырам.
Инди-инди мән өзүмә кәлмәјә башлајырам.
О буна чох севинир, тез-тез дувара башыб дејир... Ајкунун дәвәси, Ајкунун беши.

Hamlet, sən Alyaya zəng edib soruşursan bizə nə lazımdır. Bizə heç bir şey lazım deyil, təkcə sənin sağlığın lazımdır. Papa burada hər nə desəm alıb gətirir. Sən verən pullarım da eləcə durur, hələ ki, heç bir qəpiyini də xərcləməmişəm. Hamulya, sənin rentgen cavabın məni çox sevindirir, az qalıram göyə uçam. Özünə bax orada, yeməyin yaxşı olsun! Çox işləmə, dincəl, bir az da bizdən ötəri darıx. Mən biləndə ki, sən məni mən səni istədiyim qədər sevirsən, ürəyim rahat olur. Mümkünsə məktub yaz, ona görə ki, səninlə mən danışa bilmirəm telefonla.


Бизә һеч бир шеј лазым дејил, тәкҹә сәнин сағлығын лазымдыр.


Өзү-
нә бах орада, јемәјин јахшы олсун!
Чох ишләмә, динҹәл, бир ај да бујдан.
өтәри дарых.

Mehriban hələ kənddən gəlməyib, yəqin qızlarla gələr. Hamlet, mən istəyirəm hələ buradan köçməyim. Deyəsən ev yiyəsi martda köçmək istəyir. Mən də onlar köçənə yaxın köçərəm. Ona görə ki, bura mənə çox rahatdır, öz evim kimi. Divanı keçirmişəm televizorun yerinə, televizoru – divanın və Aygünlə divanın üstündə yatırıq. Hər yeri təmizləmişəm, özümün də xoşum gəlir, deyirəm kaş Hamlet burada olaydı, yazıq gəlib bir rahat gün, dadlı xörək, təmiz ev görmədi. Heç səni çoxlu öpə bilmədim, belə də şey olar? Yaman darıxıram, gecələr yuxuma da girirsən...


дејирәм каш Һамлет бурада олајды,
јазыг кәлиб бир раһат күн, дадлы
хөрәк, тәмиз ев көрмәди. Һеч чохлу
сәни өпә билмәдим, белә дә шеј олар,
јаман дарыхырам, кечәләр јухума да
кирирсән...

Hamlet, sabah Camal müəllimgilə getmək istəyirəm, görək mənə nə deyəcək!? Ayın 7-də instituta gedib, arayışlarımı və ərizəmi aparacam, deyirlər imtahanları verə bilsəm, təqaüd də verərlər. Hələ ki, oxuyuram, görək nə olar. İmtahanlarım barədə sənə məlumat verərəm. Hameş, nə pis

oldu, Azərbaycan ədəbiyyatını oxuyuram, bəzi şeyləri axı mən səndən öyrənəcəkdim, indi qalmışam belə, görək kimdən soruşa bilərəm.


Һамеш, нә пис олду Азәрбај-
ҹан әдәбијјатыны охујурам бәзи шејләри
ахы мән сәндән өјрәнәҹәкдим

Mənim Hamletim, yaz görüm pulun varmı? Özünü necə hiss edirsən? Yenə də öskürürsənmi? Orada havalar yaman soyuyub, heç bir yerə getmə universitetdən. Qızlarla danışıb eləmə, yoxsa mən hirslənərəm! Otur kitabını oxu, çörəyini ye, məşğul ol. Mən də bu bir neçə ayı birtəhər dözərəm. Ancaq bəzi vaxtlar lap (terpeniye lopaetsya). Belə də həyat olar, cavan yaşlarda ər o tayda, arvad bu tayda. Eybi yoxdur, 4-5 aydan sonra səni öz yanımdan heç bir yerə buraxmayacam, baxarsan.


Мәним Һамлетим, јаз көрүм
пулун вармы? Өзүнү неҹә һисс
едирсән?


Гызлар-
ла данышыб еләмә јохса мән
һирсләнәрәм! Отур китабыны оху, чөрә-
јини је, мәшғул ол.

Hamulya, sənə Aygündən və o birisindən salamlar var, onlar səni çox-çox öpürlər. Aygünə deyirəm ki, Hameş

deyir Aygün nə istəyir ona göndərim. O da tez cavab verir: velsoped, axı Hameş mənə demişdi ki, velsoped alacaq, özü sürə-sürə gələcək. Aygün deyir ki, dəvəyə minib Moskvaya, Hameşin yanına gedəcəm. O qədər səndən sözlər danışır ki, yazsam bir kitab olar.

Əzizim, hələlik, sağ ol. Bizi bərk-bərk sev. Həmişə sənin <u>Nailən</u>. 4. 23[10]. 75


Һамымыз сәнә Ајкүндән вә о бирисиндән саламлар вар, онлар сәни чох-чох өпүрләр.


О гәдәр сәндән сөзләр данышыр ки, јазсам бир китаб олар.
Әзизим, һәләлик саг ол. Бизи бәрк-бәрк сев. Һәмишә сәнин Наилән.
4·23[10]·75 ил.

*Qeyd*. Məktubun yazılma tarixi, yəqin ki, yanvar ayının dördüdür (1975-ci il).

*Qeyd*. Mən bir dəvə şəkli çəkib Aygünə vermişdim, adını "Aygünün dəvəsi" qoymuşdum.

*Qeyd*. Məktubda yerlimiz, atamın yaxın dostu olan Camal müəllimin, tanınmış filosof, professor Camal Musta-

fayevin adı çəkilir. Bəzi məsələləri onunla məsləhətləşərdik.

*Qeyd*. Mötərizə içində rusca yazılan (terpeniye lopaetsya / терпение лопается) ifadəsi səbrim tükənir və ya hövsələm daralır deməkdir.

*Qeyd*. Nailə xanım hamilə idi, "O birindən salamlar var" ifadəsinin mənası budur.

# Arada-bir gözüm dolur, ağlamağım gəlir
# 6-cı məktub

*Qeyd*. Məktubdan bir vərəq qalıb. Məktubun əvvəli də, sonu da yoxdur.

...Sonra yaxşı olar. Burada bir cücə alacam, bilməyəcəm kimə verim, hamısı küsəcək. Hamletim, əgər icazə versən, mən gedib orada bir az qalam, özümə gələnə kimi, sonra yenə də gedərəm Mehribangilə. Səndən cavab gözləyəcəm. Mehribana zəng edib deyərsən, əgər razı olsan, deyərsən ki, Nailəyə de ki, o dediyi sözə "hə" deyirəm. Bir az özümə gələndə gərək instituta gedəm, bircə zaçot vermişəm, 4 zaçotum, 5 imtahanım var. Görək nə təhər olacaq, çox çətindir. Bu ilim qurtarsaydı bir azad nəfəs alardım.


Сəндəн ҹаваб көзлəјəҹəм. Меһрибана зəнҝ едиб
дејəрсəн
4 зачоту, 5 имтаһаным вар,
көрəк нə тəһəр олаҹаг, чох чəтиндир. Бу
илим гуртарсајды бир азад нəфəс алардым.

Hamlet, çalış tez gəl, bir az mənə kömək elə. Qurban olum sənə, məndən incimə yazdığım sözlərə görə, məni başa düş.


Гурбан олум сәнә, мәндән инҹимә јаздығым сөзләрә ҝөрә, мәни баша дүш.

Hamlet, mənə məktub yaz. Bu məktubu uzanan yerdə xəstəxanadan yazıram. Bu gün 5 gündür mən burdayam, yəqin 4-5 gün də qalıb çıxacam, hər şey yaxşı olsa.


Бу мәктубу узанан јердә хәстәханадан јазырам.

İndi gedim, çağırırlar uşağı əmizdirməyə. Gələndən sonra davam edərəm məktubu, gedim səndən də qızımıza salam deyim.


Ҝедим сәндән дә гызымыза салам дејим.

Hə, gəldim, davam eləyirəm. Hamlet, yaz görüm qızımızın adını nə qoyaq, axı biz hələ o barədə düşünməmişik. Mən heç bilmirəm nə ad qoyaq. Bəlkə Aygünə yaraşdırıb bir ad tapaq (Aytən), ya da başqa adlar (məs. Gülarə, Elnarə, Ruhəngiz və s.). Sən də fikirləş, yaz.


Һамлет

Јај көрүм гызымызын адыны нә гојаг

Əzizim Hamlet, sən məndən uzaqdasan deyə özümü belə tək hiss edirəm ki, arada-bir gözüm dolur, ağlamağım gəlir. Burada hamının yanına ərləri gəlir, ərləri nə dediklərini və yaxud uşağa söyündüklərini bir-birinə söyləyirlər və sevinirlər. Mən də onlara qulaq asıram və heç bir söz deyə bilmirəm. Bilirsən, bizim palatada 38 adam var və onlardan 3-4 oğ...


Әзизим Һамлет, сән мәндән узагдасан

деjә өзүмү белә тәк һисс едирәм ки,

арада бир көзүм долур, ағламағым

кәлир.

*Qeyd*. “əgər icazə versən, mən gedib orada bir az qalam” deyərkən Nailə xanım xəstəxanadan çıxanda bir müddət anasının yanında qalmaq üçün məndən icazə istəyir.

*Qeyd*. Vərəq burda sona yetir, davamı itmişdir. Yəqin ki, sonuncu cümlədə cəmi 3-4 oğlan olduğunu yazıb.

*Qeyd*. Məktub, yəqin ki, aprel ayının 20-si (1975) ətrafında yazılmışdır.

# Məndən yazmaq, səndən almaq
## 7-ci məktub

Mənim Hamletim, salam!


Мәним Һамлетим,
салам!

Əzizim, sənə 2-ci məktubdur ki, yazıram. Hamlet, indi yaxşıyam, özümü pis hiss etmirəm, südüm də yaxşıdır, uşağa çatır. Uşağımız da çox yaxşı uşaqdır, “tfu”, “tfu”, maşallah. Elə bil ki, 2-ci Aygündür. Adı Aytən olsa yaxşı olar, yaxşı yaraşar: Aygün, Aytən. Bircə bəlkə gözləri mənimkinə oxşayır, qalan hər yeri elə bil sən və Aygündür. Maraqlı alt dodağıdır, düz səninki kimi iki hissədən ibarətdir, ortası yarıq. Bir də bilirsən Hamlet, çənəsinin ortası da yarıqdır, bilmirəm kiminkinə oxşayır. Aygünün saçı kimi saçı seyrək və sarı rəngdədir. Hamlet, eşidəndə ki, qız olub, kefim yaman pozuldu, ancaq indi elə çox istəyirəm ki, az qalıram yeyəm. Aygünü heç demirsən, elə söyünür ki, oturur krovatda, uşağı da alır qucağına, elə gülməli görsənir. Uşaq ağlayanda gedir tərpədir, əmziyini verir.


Ушағымыз да чох јахшы ушагдыр „тфу,“ „тфу,“ „машаллаһ.“ Елә бил ки 2-ҹи Ајкүндүр.


Һамлет, ешитдим ки гыз олуб кефин јаман позулду, амма инди елә чох истәјирәм ки, ај гамышдан јејим.

Hamlet, bu gün instituta getdim. Ancaq dekan yox idi, indi qaldı ayın 3-nə. Mənim kimi bir qız da var bizim qrupda, o da hələ zaçotlarını verməyib. Uşaqlarımız bir imtahan veriblər, ayın 29-da, axırıncısı 17-sindədir. Mən indi ərizəmi və arayışımı verəcəm dekanata, onlar da mənə napravleniye (göndəriş) verəcəklər. 3 zaçot verməliyəm, sonra öz qrupumuzla imtahan verəcəm. Vermədiyim imtahanları 17-dən sonra verəcəm. Dövlət imtahanlarımız da iyunun 6-dan iyulun 4-nə kimi olacaq – cəmi 4 imtahan.

Hamlet, sən ayın 15-də gəlsən çox yaxşı olar. Səndən ötəri çox darıxıram, tez gəl. Bilirsən, indi sən aldığın paltarı geyinirəm, əynimdə elə qəşəng durur ki. Xeyli kökəlmişəm, enniləşmişəm, paltar da lap dar durur əynimdə. Hamı deyir ki, belə qalsan yaxşı olar. Qorxuram imtahanlar və uşaqlar məni bir təhər eləyə, yenə də arıqlıyam.


Сәндән өтәри
чох дарыхырам, неј [illegible]. [illegible]-
сын, инди сән алдағын [illegible]
[illegible] [illegible] [illegible] [illegible]
дурур кы,

Hamlet, bilirsən bircə fikrim odur ki, tezcə bu imtahanlardan canım qurtara. Hamımız bir yerə yığışaq, sənə, uşaqlara və özümə yaxşı baxam, yeməyimizə yaxşı fikir verəm, bir normal ailə və adam olaq.


һамымыз бир јерә
јығышаг, сәнә, ушаглара
вә өзүмә јахшы бахам,
јемәјимизә јахшы фикир верәм,
бир нормал аилә вә адам олаг.

Hamletim, indi yazıram təxminən nə lazımdır uşaqlarımıza. Nəyi bacarsan alarsan. Bəlkə artıq şey yazsam, alma. Demək istəyirəm öz gücünə bax, məndən yazmaq, səndən almaq.


Бәлкә артыг шеј јазсам алма,
демәк истәјирәм өз ҝүҹүнә бах,
мәндән јазмаг, сәндән алмаг.

Balaca qızımıza

• распашонки (4 шт. белые, летние, кружевные).

• чепчики (4 шт. 2 - белые, кружевные, 2 – теплые, байковые)

*Qeyd*. Söhbət yenicə doğulmuş ikinci qızımızdan gedir. Adını nənəmin (cijimin) təkidi ilə Zeynəb qoymalı olduq. 3-cü qızımıza Nailə xanımın istədiyi Aytən adını verdik.

*Qeyd*. Bir neçə söz, o cümlədən, uşaqlar üçün alınmalı paltarların adları rusca yazılıb.

• Düyməsiz uşaq köynəyi (4 dənə, ağ, yay üçün, şəbəkəli).

• Ləçək (4 dənə, 2 – ağ, şəbəkəli, 2- isti, yumşaq yunpambıqdan tikilmiş)

*Qeyd*. Məktub burada kəsilir, yarımçıq qalır.

*Qeyd*. Məktubun yazılma tarixi, yəqin ki, 1975-i ilin aprel ayının son və ya may ayının ilk günlərinə təsadüf edib.

# Hər şeydən əvvəl sənin can sağlığındır
## 8-ci məktub

Hamletim, salam!


Һамлетим, салам!

Mənim əzizim, səndən ötəri çox nigaranam. Mən istəyirəm sənə bir putyovka düzəldək, gedəsən bir az dincəlib müalicə edəsən. Yaxşı olardı ki, Yalta, sanatoriya. Bilirsən sənə mütləq dincəlmək və rejim lazımdır. Xahiş edirəm fikirləş və mənə qəti qərarını de. Makbetə də gedəndə demişəm ki, Mərziyə mama çalışıb bir putyovka tapsın. Hamlet, mənim və uşaqlarımız üçün hər şeydən əvvəl sənin can sağlığındır, qalan hər şey sonra da olursa olsun. Hər şeydən əvvəl sən bizi düşünməlisən, bizə yaxşı olsun.


Мәним әзизим сәндән өтәри чох нигаранам.


Һамлет
мәним вә ушагларымыз үчүн
һәр шейдән әввәл сәнин ҹан
сағлығындыр

Əzizim, tərslik etmə, putyovka tapaq get dincəl, həkimlərin nəzarəti altında. Sənin bir yerin ağrıyanda bil ki,

mən çox nigaran oluram, gecələr fikirdən yata bilmirəm. Mənə bir məktub yaz öz işlərin haqqında və bu məsələ haqqında.


Сәнин бир је-
рин ағрыјанда бил ки бу мән
чох нигаран олурам, кечәләр
фикирдән јата билмирәм.

Hamlet, biz yaxşıyıq, bala-bala dolanırıq. Bizim fikrimizi çəkmə, hər şey yaxşıdır və lap yaxşı olacaq. Qızların da çox yaxşı, çox gözəl və çox ağıllıdırlar. Aygün həmişəki kimi səni sevir və sənsiz darıxır. Mənə kömək eləyir, xeyli tərbiyələnib, bukvarı (əlifbanı) bala-bala oxuyur. Ancaq heç istəmir ki, sən gec gələsən. Deyir ki, niyə Hameş qışda gələcək, qoy tez gəlsin də, sonra da gözləri dolur. Zuzu da ki, bütün günü gülür, çox şən qızdır, özü də həmişəki kimi gombuldur. Aygünün yeməyinə yaxşı baxıram, vaxtında yedirdirəm, bir az yaxşılaşıb.

Özümün də dişim yaman ağrıyırdı, getdim çıxartmağa, həkim çıxartmadı, dedi ki, müalicə lazımdır. Getdim ki, müalicə eləsinlər, onlar da mışyak qoydular ki, nervı öldürsün, sonra da müalicə etsinlər. Mışyak qoyandan sonra ağrısı dayandı, mən də ondan sonra hələ getməmişəm müalicəyə. Qonşumuz Lyusya (Moskvalı) deyir ki, Moskvada elə müalicə edirlər ki, heç bilinmir ağrısı (1-ая платная

стоматологическая поликлиника, д-р Коган, Кисельный переулок). Deyir çox yaxşı həkimdir. Özü onda müalicə edib və plastmas koronka saldırıb.


Бизим фикримизҹә гәлсә һәр шеј јахшыдыр вә ј лап јахшы олаҹаг.


Ајнур һәмишәки кими сәни севир вә сәнсиз дарыхыр. Мәнә көмәк едәјир, хејли тәрбијәләниб, букварын бала-бала охујур. Анҹаг һеч истәмир ки сән кеч гәләсән.


Зузу да ки бүтүн күнү күлүр, чох шән гыздыр, өзү дә һәмишәки кими көлбүдүр.

Hamulya, 2-3 günə Rüfət gələcək, deyəsən bu il toyunu edəcəklər. Mən də toya yaxın gedərəm kəndə. Dünən aparıb parçamı vermişəm tikdirməyə, sonra da müalicəyə gərək gedəm (qadın həkiminə).

Mənim də obxodnoy listimi Rita doldurtdurub, indi qalıb ki, gedib diplomu alım. Onu da sabah Bela gələcək bizə, Zuzunan oturacaq, mən də gedəcəm.

Pulumuz da hələ var. Sən çalış pulun gələn kimi özünə bir kostyum al. Mən də kassada olan puldan götürüb xərcləyirəm. Çox istəyirəm Moskvaya gəlim, ancaq hələ gələ bilmərəm, bir az pul düzəldənnən sonra gələ bilərəm.


Пулумуз дә һә-
лә вар, сән чалыш пулун
ҝәлән кими өзүнә бир кастјум ал.
Чох истәји-
рәм Москваја ҝәлим анҹаг
һәлә ҝәлә билмәрәм бир аз пул
дүзәлдәннән сонра ҝәлә билә-
рәм.

Mamam hələ xəstəxanada yatır, hələ müalicə olunur, onda plevrit tapıblar. Ayın 1-də gələcək. Firidun indi Soçidədir, görək işi nə olur, hələ xəbər yoxdur. Mənim yanımda Tamilla qalır. Mehribangil də yaxşıdırlar. Qızlar tez-tez gəlirlər yanıma. Tutduqları ev bizə yaxındır, İçəri şəhərdə, Akademiyanın yanında. Bu yaxınlarda Muxsara mama gəlmişdi, Qətibənin xəstə olduğunu eşidib. Bizə də gəlmişdi.

Rüfətin kontrol işini çalış ki, tez göndər. Bir məktub da Suddara yazacam. Uşaqların şəklindən ona da göndərəcəm. Hər halda Rüfətin toyu olsa, sən də gələrsən.

Firidun gedəndə balaca otağa bir bacı və bir qardaş kvartirant qoyub, 3 ay pullarını götürüb gedib. İndi papa deyir ki, çox pisdir halım, Bakıya gəlmək istəyirəm, onlar olduğuna görə gələ bilmir. Görək nə olur. Deyəsən istəyirlər bir təhər pullarını qaytarıb yola salsınlar – mama xəstəxanadan çıxanda. Çox tərbiyəli uşaqdırlar, adamın yazığı da gəlir.


Чох тәрбијәли ушагдыр-
лар адамын јазығы да ҝәлир.

Uşaqların şəkillərini gözləyirəm, yəqin sabahda-zadda onların ikisini də həkimə aparacam.

Hamletim, gələndə mümkün olsa uzun düyü al gətir. Burada diş şotkası yenə də tapılmır, mənə bir şotka al, Aygünə də kalqotki, 16 razmer, vəssəlam.

Mənim əzizim, səni səbirsizliklə gözləyirik,

Hamımız səni öpürük, çoxlu-çoxlu. Salamat qal.

*18 / VII – 1975.*

*Nailə.*




*Qeyd*. Mən bir az xəstələnmiş və zəifləmişdim. Nigarançılıq və dincəlmək üçün putuyovka (vəsiqə) məsələsi ona görədir.

*Qeyd*. Aygün haqqında yazılan “bukvarı (əlifbanı) bala-bala oxuyur” sözü doğrudur. O, 3 yaşı tamam olandan bir az sonra həm azərbaycan, həm rus dillərində kitab oxumağa başlamışdı.

*Qeyd*. “Zuzu” yeni doğulmuş qızımız Zeynəbdir.

*Qeyd*. Bir sıra sözlər rusca yazılıb, dildə işlənildiklərinə görə: мышьяк (arsen), нерв (əsəb), коронка (diş qapağı), обходной лист (qeyd vərəqəsi), плеврит (ağ ciyər pərdəsinin iltihabı), контроль (yoxlama), квартирант (kirənişin), щётка (şotka, fırça), колготки, размер (ölçü).

# *Sən gedən gündən başladıq səndən ötəri darıxmağa 9-cu məktub*

Hamımızın əzizi və doğması olan Hamlet, salam!


Һамымызын әзизи вә доғмасы
олан Һамлет, салам!

Çoxdandı ki, məktub yazmıram, ona görə yadırğamışam, bilmirəm necə yazım, nədən başlayım? Sən gedən gündən başladıq səndən ötəri darıxmağa. Həmin gün Aygün lap kefimizi pozdu, bütün günü ağlayıb, mən də məcbur oldum onu sakitləşdirməyə.


Сән кедән күндән башладыг сәндән
өтәри дарыхмаға. Һәмин күн Ајкүн
лап кефимизи позду, бүтүн күнү ағла-
јыб,

Ümumiyyətlə, işlərimiz pis getmir. Ülkərnən mən hər gün işə gedirik. Qızlar haqqında nə yazım? Özləri sənə ayrılıqda məktub yazacaqlar. Evdə hər şey qaydasındadır. Çalışıram hər şey alım yığım evə, deyirlər çox bahalıq olacaq.

Bir həftə qripdən yatdım, indi yavaş-yavaş sağalıram. Zeynəb hamıdan çox çalışır. Biologiya dərsinə gedir, Tofiq müəllim fizik və ximik də tapıb bizim həyətdən, o dərslərə də gedir və məcbur olur çoxlu hazırlaşmağa. Sənə məktub yazmağa da vaxtı çatmadı. Aytən gah sevindirir, gah da kədərləndirir öz oyunu ilə, nə isə.


Евдә һәр шеј гајдасындадыр. Чалышырам һәр шеј алым јахшы евә, дејирләр чох баһалыг олачаг.

Зејнәб һамыдан чох чалышыр. Биолокија дәрсинә кедир, Тофик м. физик вә химик да тапыб, бизим һәјәтдән, о дәрсләрә дә кедир.

Ајтән каһ севиндирир бизи, каһ да кәдәрлән-дирир өз ојуну илә, нә исә.

Bəylər müəllim bir dəfə gəlmişdi, sənin maaşını gətirdi (750 manat), vəssəlam. Əfqan gəlmişdi, çox insan adamdır, ət və başqa şeylər gətirmişdi. Bir neçə dəfə də zəng

edib, soruşub nə lazımdı! Şamil müəllim zəng etmişdi, o da səninlə maraqlandı və öz köməyini təklif etdi.


Әфган кәлмишди, чох
инсан адамдыр, әт вә башга шејләр
кәтирмишди. Бир нечә дәфә дә
зәнк едиб, сорушуб нә лазымды!

Salehə zəng edib dedim yazdıqlarını. Əsas köməyimizə Ələddin müəllimgil yetir. Ona da sən yazdıqlarını çatdırdım, dedi ki, çalışaram. Sən də onun İstanbula gəlib işləməsi barədə bir kəşfiyyat apar, çalış bir şey düzəlt, yaman ingilis dili öyrənir.

Hamletim, əzizim, darıxma, bir azdan görüşəcəyik inşallah. Əsas odur ki, bir şeydən özünü kəsir qoyma. Çox şey göndərmək istədim, ancaq mümkün deyil. Allah qoysa gələndə nə lazım olsa, özün apararsan. Bilet məsələsi ilə Bəylər məşğul olur, nəsə Rəhim kağıza qol çəkmək istəmirdi, mən dedim ki, lazım olsa özüm gedərəm onun yanına. Bəylər dedi ki, lazım deyil, bu gün bir şey düzəldərik. O da düzələcək, pislik özünə qalacaq. Yaxşı ki, bir il onun üzünü görməyəcəksən, bir az dincələrsən.


Һамлетим, әзизим дарыхма бир аздан көрүшәҹәјик иншаллаһ. Әсас одур ки, бир шејдән өзүнү кәсир гојма.

Maqbet və Calal da Türkiyədədirlər (10 gündür). Bu gün Maqbet zəng etmişdi, dedi ki, ola bilsin ki, İstanbula gedəcəklər. buradan gedəndə dəqiq bilmirdilər İstanbula gedəcəklərini.

Daha nə yazım, məktubda hər şeyi xırdalayıb yazmaq olmur.

Xatirə dünən gəlib, bu gün ona zəng etdim, evdə yox idi, bir azdan yenə zəng edəcəm.

Qal sağ-salamat.

Öpürəm səni, darıxıram. Sənin Nailə xanımın.

*29 / XI – 91.*


Гал сағ саламат.
Өпүрәм сәни, дарыхырам.
Сәнин Наилә ханымын.
29/XI-91.

*Qeyd*. Bəylər, Əfqan və Saleh Xəzər universitetində (o zamankı adı ilə "İngilisdilli Azərbaycan universiteti"-ndə) çalışan müəllim və inzibatçılardır. Rəhim müəllim və o zamanlar yeni qurmağa başladığım Xəzər baş verən hadisələr haqqında *"Xəzər"in sorağında* adlı kitabda yazmışam...

# *Sovet ittifaqını dağıtdıq, indi müstəqil olmuşuq*
# *10-cu məktub*

Əzizim və gözəlim Hamlet!


Әзизим вә көзәлим, Һамлет!

Nəhayət, çox çətinlikdən sonra dünən Bəylər sənin biletini aldı. Bəylərə demişdilər ki, bilet yanvar ayına olduğuna görə təzə qiymətlə satılacaq. Təzə qiymət isə dekabr ayının 25-dən sonra məlum olunacaq. Ona görə o vaxt gəlib götürərsən. Dünən isə bileti götürəndə başqa cür oldu. Bəylərə İstanbul-Bakı və Bakı-İstanbul biletlərini verdilər və sonra o, Bakı-İstanbul biletini qaytarıb - 300 manat əksiyinə (bilet köhnə qiymətlə satılıb).

Təsadüfən öyrəndim ki, universitetdən sabah İstanbula gedən var (riyaziyyatçılardan). Bir qrup riyaziyyatçı getməliydilər, ancaq təxirə salındı onların getməyi. Təkcə bir nəfər, Məsimov (prorektor) arvadı ilə gedir. İndi biz istəyirik sənin biletini ona verək ki, sənə çatdırsın. Bəylər də dedi ki, sabah türklərdən heç kim getmir. Mən bilirəm ki, sən indi Ankaradasan, ona görə ona deyəcəyik ki, bileti Abbasa yaxud da rektora versin.


Мән билирәм ки, сән
инди Анкарадасан

Hamlet, mən çox şadam ki, sənin işlərin yaxşı gedir. Məhəd müəllim telefonla və universitetdə Aygünə səni çox təriflədi və dedi ki, işlərin çox yaxşı gedir. Biz də yaxşıyıq, narahat olma. Aygünə sapoqi aldım, Ülkərin sapojkisi yoxdur (razmer 20) və idman kostyumu olsa yaxşı olar. Gələndə bir az konfet gətir (şirniyyət).


Һамлет, мән чох шадам ки, сәнин
ишләрин јахшы кедир.
Биз дә јахшыјыг, нараһат олма.
Кәләндә
бир аз конфет кәтир (ширнијјат).

Təzə ili görəsən harada keçirəcəksən? Bizi də indidən dəvət edirlər. Mən istəyirəm evimizdə olum. Düzdü, sənsiz ürək sıxıntılı olacaq və mənə elə gəlir ki, heç kefim olmayacaq. Axı yeni il bayramını biz ilk dəfədi ki, ayrı keçiririk (21 ildə). Çalış zəng elə gələnə kimi.


Ахы јени ил бајрамыны
биз илк дәфәди ки ајры кечи-
ририк (21 илдә).

Bəylər deyir ki, qəbul imtahanında olan müəllimlərin siyahısını (spisokunu) nazirliyə vermək lazımdır. Qorxur ki, Rəhim özü kimi istəyir onu da təsdiq edəcək. İndi Rəhim

məzuniyyətə gedib. Ona görə Bəylər yaman təşvişdədi, istəyir ki, sən tez gələsən.

Siyasi həyatımızdan da yəqin ki, xəbərin var. Sovet İttifaqını dağıtdıq, indi müstəqil olmuşuq. Bircə bazar bolluqdur, mağazalar tamam boşdur. Bazardakı qiymətlər də dəhşətdi. Toyuq 40-50 manat, ət 35 manat, yumurta 1 dənəsi 1 manat əlli qəpik və s. Camaat az qalır bir-birini yesin. Çox çətinlik çəkirlər. Sənə bir az Respublika yeniliklərindən yazdım. Qalan yenilikləri gəlib özün eşidərsən.


Сијаси һәјатымыздан да јәгин ки хәбәрин вар. Совет Иттифагыны дағытдыг. инди мүстә-гил олмушуг. Базар бирҹә боллуг-дур, мағазалар тамам бошдур. Базардакы гијмәтләр дә дәһшәтди. Ҹамаһат аз гала бир-бирини јесин. Чох чәтинлик чәкирләр

Bir sözlə, çox darıxırıq, əsas da mənimlə Aygün. Yaxşı ki, gəlirsən, yoxsa dözmək olmur.

Öpürəm səni. Ağıllı ol, bizi sev, bizdən ötəri darıx.

*Nailə*

*24 / XII 91*


Бир сөзлә чох дарыхырыг, җас да мәнимлә Ајкун. Јахшы ки кәлир-сән, јохса дөзмәк олмур.
Өпүрәм сәни. Ағыллы ол, бизи сев, биздән өтәри дарых.
24/XII-91 ил. Наилә.

*Qeyd*. Rusca ifadələr var: sapoqi, sapojki (uzunboğaz çəkmə,çəkməcik), razmer (ölçü). “Siyahı” və “spisok” sözlərini yan-yana yazıb.

*Qeyd*. Bu məktub mənim Istanbuldan göndərdiyim 13 noyabr və 17 dekabr 1991-c il tarixli məktublara cavabdır. İstanbulda necə yerləşdiyim, iş və ev şəraitim, Eskişehir Anadolu universitetinə səfərim və Ankara Orta Doğu Teknik universitetinə dəvət olunmam barədə məlumat vermiş, mənə telefon etməyin mümkünsüzlüyü və mənim telefon etməyimin çox çətin olduğunu izah etmişəm. Universitetimizə aid bəzi tapşırıqlar vermişəm. Yanvar ayı üçün mənə İstanbul-Bakı təyyarə bileti alınmasını xahiş etmişəm.

## Allah heç kəsin evini kişisiz qoymasın
## 11-ci məktub

Əzizimiz Hamlet ata!


Әзизимиз, Һамлет ата!

Bu gün Nurlan gətirdiyi məktubu aldıq. Hamımız çox sevindik.

Keçən dəfə, sən gedəndə bu qədər yuxuma girmirdin. İndi, demək olar ki, hər gün gecə mənim yuxumdasan. Allah heç kəsin evini kişisiz qoymasın! Evin yaraşığı olmur. Bizdən nigaran olma, hamımız yaxşıyıq. İşlər də pis getmir. Hamı da sağ-salamatdır.


Кечән дәфә сән кедәндә бу гәдәр јуху-
ма кирмирдин. Инди демәк олар
ки, һәр күн кечә мәним јухумдасан.
Аллаһ һеч кәсин евини кишисиз
гојмасын! Евин јарашығы олмур.

Səlim müəllimdən göndərdiyin tapşırıqların hamısını Bəylərə və Şahinə dedim. Sabah Saleh müəllim getməlidir,

yəqin ki, onunla göndərərlər nə hazırlayıblarsa. Mən də istəyirəm bu məktubu onunla göndərim.

Sənin yanına gəlmək bir az çətinləşib, ona görə ki, biletin qiyməti olub 44 min ya da çox. Dəqiq bilmirəm. Mənə elə gəlir ki, sən özün onsuz da gələcəksən, sonra mən özüm yayda dediyin kimi 2 həftəlik gələrəm və bir yerdə qayıdarıq. Uşaqlara və özümə çalışaram görüm necə pasport düzəldim. Nana gəlmək istəyir, deyir ki, çalışacaq sən gələnə kimi gəlsin, olmasa sonra gedər. Mənə zəng etmişdi. Universitetində dərslər deyilənə görə yaxşı gedir. Hər şey asta-asta düzələcək.


Сәнин јанына кәлмәк бир аз чәтинләшиб, она көрә ки билетин гијмәти олуб 44мин ја да чох. Дәгиг билмирәм.

Университетиндә дәрсләр дејиләнә көрә јахшы кедир. Һәр шеј аста-аста дүзәләҹәк.

Bacarsan uşaqların sifarişlərindən yerinə yetir. Özünə hər nə çatmırsa al. Sənin üçün bileti də Bəylər sifariş edəcək. Yaxşı ki, gəlirsən, özün hər şeydən halı olarsan, yəni

buraların əhvalatından. Zeynəb çox sevinir, deyir ki, camaatın atası ad günlərinə 100 manat verir, mənimki 100 dollar bağışlayır. Ülü balamız da sənə vurhavur məktub yazırdı.


Јахшы ки билирсән, өзүн һәр шејдән һалы оларсан, јәни бураларын әһвалатындан.

Bir sözlə, hər şey yaxşıdır. Səni səbirsizliklə gözləyirik.

Hələ bilmirəm bu məktub sənə çatacaq ya yox.

Hamımız səni öpürük.

8 / IV – 92.


Бир сөзлә һәр шеј јахшыдыр. Сәни сәбирсизликлә көзләјирик. Һәлә билмирәм бу мәктуб сәнә чатачаг ја јох.
Һамымыз сәни өпүрүк.
8/IV-92.

*Qeyd*. “Universitetində dərslər deyilənə görə yaxşı gedir” – Xəzər Universiteti (o zamankı “İngilisdilli Azərbaycan universiteti”) nəzərdə tutulur.

*Qeyd*. Bu məktub İstanbuldan yazdığım və İstanbuldakı azərbaycanlı tanışım Nurlanla göndərdiyim məktuba cavabdır.

# Sən çox şən və ağıllı uşaq oldun
# 12-ci məktub

Дорогая наша любимая Джанан. У тебя сегодня день рождения, ровно 7 лет назад ты появилась на свет. Мы тебя привезли из больницы домой, на дверях твой комнаты было написано Welcome Baby Janan и все мы были счастливы.




Дорогая наша ~~Джанан~~ любимая Джанане. У тебя сегодня день рождения, ровно 7 лет назад ты появилась на свет.

Ты росла очень веселым и умным ребенком. И вот прошли годы. Ты уехала с мамой в Стамбул и мы с баба стали скучать по тебе. Благодаря маме ты стала посещать разные кружки и занятия – это рисование, танцы, музыка, пение, балет.


Ты уехала с мамой в Стамбул и мы с баба ~~на~~ стали скучать по тебе.

Любимая наша Джанан, мы очень счастливы с бабой, что ты стала такой всесторонне развитой умной девочкой.


мы очень
счастливы с бабой, что
ты стала такой всесто-
ронне развитой умной
девочкой.
Мы Я и баба желаем
тебе только здоровья
и счастливого детства
вместе с мамой
и любящими тебя
людьми.

Я и баба желаем тебе здоровья и счастливого детства вместе с мамой и любящими тебя людьми.

15 / IV - 2020

# *Üçüncü fəsil*

***“Təhsil əyalətçiliyi deyil, milli-mənəvi dəyərləri öyrətməlidir...”***

***Nailəxanım İsayeva***



## *BU DA BİR HƏYATDI...*

# Dünyanı dəyişək

Təhsil əyalətçiliyi deyil, milli və dünyəvi dəyərləri öyrətməlidir; insan həm vətəndaşı olduğu ölkənin, həm də qloballaşan dünyada o qədər də böyük olmayan Yer kürəsinin vətəndaşıdır.

Uşaqlarda özünə inam yaratmaq məktəbin mühüm vəzifəsidir. Onlar yalnız böyüyəndə deyil, bu gün də böyük işlər görə biləcəklərini anlamalıdırlar.

Uşaqlar dünyanı dəyişmək, onu daha gözəl etmək barədə düşünməli, fərdin və cəmiyyətin inkişafında elm və mədəniyyətin həlledici rolunu görməlidirlər. Məktəbi yaradarkən hər bir uşağın bacarığını, potensialını açmaq və aşkara çıxarmagı arzulayırdım. Elə bir məktəb yaratmaq istəyirdim ki, orada uşaq dünyanı öyrənsin, özünün dünyagörüşünü genişləndirsin, təhlil və tənqidi düşüncəsini inkişaf etdirsin. Bununla da ətrafdakı mədəniyyətlərə və insanlara xoş qılıqla, tolerant yanaşmağı bacarsın.

***(“Xoşbəxtlik nədir?!” filmindəki çıxışı)***

## Gənclərin özünü düşündürək

Dünyanın hər yerində, ictimai inkişafın hər bir mərhələsində cəmiyyətin təhsillə üzvi bağlılığı olmuşdur. Hər birimiz təhsilin ictimai həyatda mərkəzi rolunu qeyd-şərtsiz qəbul edirik. İndiki dövrdə təhsilin rolu və əhəmiyyəti daha fərqlidir. Yaşadığımız informasiya dövründə yeni faktlar, bilgilər baş gicəlləndirir, sürətlə həyatımıza daxil olur.

"XXI əsrin savadsızları oxumağı və yazmağı bacarmayanlar deyil, öyrənməyi, bildiklərini bir kənara qoymağı və yenidən öyrənməyi bacarmayan kəslərdir." (Alvin Toffer, futurist, yazıçı,) Həyatını insanları maarifləndirmək işinə həsr etmiş müəllim və təlimçilərin qarşısında artıq yeni suallar və yeni vəzifələr durur. Gənclər gələcəyə hazır olmaq üçün nəyi və necə öyrənməlidirlər? Elmi-texnoloji inkişaf dövründə "məsafəli öyrənmə" ilə "ənənəvi tədris" arasında əhəmiyyətli fərq varmı? Gənclərin hansı metodlara əsasən öyrənəcəyini kim və necə müəyyən etməlidir?

Bir pedaqoq kimi, bizim məqsədimiz gənclərin özünü düşündürməkdir. Təhsil gerçək həyatla uzlaşmalıdır, çünki təhsil elə həyatın özüdür. Onlar yalnız böyüyəndə deyil, bu gün də böyük işlər görəcəklərini anlamalıdırlar. "Gələcəyin müasiri" olmaq istəyiriksə, bizim təhsildə müasirlik sabaha hesablanmalıdır.

***"XXI əsr şəxsiyyətinin formalaşmasında önəmli amillər" mövzusunda keçirilən onlayn beynəlxalq foruma müraciəti***
***10 mart 2021-ci il.***


AZƏRBAYCAN, BAKI
DÜNYA MƏKTƏBİ
BEYNƏLXALQ FORUM
ONLAYN
15 may 2021
XXI ƏSR ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA ÖNƏMLİ AMİLLƏR
GƏLİN DÜŞÜNCƏLƏRİMİZİ PAYLAŞAQ VƏ ÖYRƏNƏK
Son qeydiyyat tarixi:
13 May 2021
İştirak ödənişsizdir
Əlavə məlumat və qeydiyyat üçün
dunyaschool.edu.az

***Müraciət 2021-ci ilin mart ayında qələmə alınıb.***
***Aprel ayına planlaşdırılan forum Nailəxanımın vəfatı ilə əlaqədar olaraq təxirə salındı.***
***Həmin ilin may ayının 15-də dünya məktəbində keçirilən forum Nailəxanımın xatirəsinə ithaf edildi.***
***Açılış günü Nailəxanım İsayevanın bu müraciəti forum iştirakçılarına olduğu kimi təqdim edildi.***

## *Yaxşı məktəb nədir?*

Hörmətli valideynlər, müəllimlər!

“Yaxşı məktəb nədir” adlı konfransımızı açıq elan edirəm. Dəvətimizi qəbul etdiyiniz üçün hamınıza təşəkkür edirəm. Konfransımızda Azərbaycanın görkəmli alimləri, pedaqoqları məruzə edəcəklər.

Bu gün Dünya Məktəbi, onun müəllimləri və bütün əməkdaşları üçün şərəfli gündür. Xalqın inkişafında təhsilin rolu əvəzsizdir. Bunu hamı bilir. Xüsusilə məktəb təhsili – ibtidai təhsil, orta təhsil. Məktəb cəmiyyətin ən çox müzakirə etdiyi bir sahədir. Altı yaşına çatan uşağın məktəbə getməsi onun valideynləri, nənə-babaları üçün ən əlamətdar gündür. Dünyanın inkişaf etmiş bütün bölgələrində məktəb təhsili icbaridir. Hər uşaq ən azı 9 illik təhsilini almalıdır və təbii ki, hər ailə, hər valideyn imkan dairəsində uşaqlarını yaxşı məktəbdə oxutmaq istəyir. Əslində hər məktəb yaxşı olmalıdır, pis məktəb olmamalıdır. Çünki məktəb uşaqlara təhsil verir, onları həyata hazırlayır. Amma görünür ki, bütün ölkələrdə müxtəlif səviyyələrdə məktəblər var. “Yaxşı məktəb” sözü elə buna görə yaranıb.

Yaxşı məktəb nədir?! Yaxşı məktəb nəyə deyilir?! – Bu sualın cavabı ilk baxışdan asan görünsə də, sadə deyil! Sualın yəqin ki, müxtəlif cavabları var, məhz bu səbəbdən

də "Yaxşı məktəb nədir" mövzusunda konfrans təşkil etmək qərarına gəldik. Məruzə etmək üçün ömrünü, yaradıcılığını təhsilə, elmə, təhsilin təşkilinə həsr etmiş insanları bura dəvət etmişik və mən onlara söz vermək, onları səhnəyə dəvət emək istəyirəm.

***2009-cu ilin noyabr ayında Dünya Məktəbində "Yaxşı məktəb nədir" mövzusunda keçirilən konfransındakı açılış nitqi***

# *Sevgi dolu alim və pedaqoq*

Tanınmış folklorşünas alim, filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi Bəhlul Abdulla bizim, Dünya məktəbi kollektivi və onun şagirdlərinin gözündə ilk növbədə təcrübəli pedaqoq, mehriban və qayğıkeş insandır. Bəhlul müəllim özü bir məktəbdir, tək şagirdlər deyil, müəllimlər də, məktəbi idarə edənlər də ondan çox şey öyrənirlər. Alicənablıq, yumşaqlıq, kömək əlini uzatmaq bacarığı kimi gözəl xüsusiyyətlər Bəhlul müəllimdə kifayət qədərdir.

Bəhlul müəllimin elmi fəaliyyəti barədə onun kimi alimlər və tədqiqatçılar çox saylı yazılar yazıblar və yəqin ki, yazacaqlar. Onun elmi fəaliyyətini təhlil etmək mənim işim deyil. Mən daha çox Bəhlul müəllimin elmi yaradıcılığının pedaqoji fəaliyyətinə böyük təsiri üzərində durmaq istəyirəm. O, dərs dediyi gənclərə keçdiyi mövzunun incəliklərinə varmağı, dərinlərə getməyi, mövzuətrafı araşdırma aparmağı öyrədir.

Əlbəttə, Bəhlul müəllimin elmi yaradıcılığı, ictimai işləri, ailə qayğıları böyük vaxt və enerji tələb edir, lakin iş cədvəlinin sıx və gərgin olmağına baxmayaraq, Bəhlul müəllim Dünya məktəbində öz dərslərini çox səliqəli və həvəslə deməklə yanaşı məktəbin tədbirlərində də böyük kö-

məklik göstərir. Müxtəlif konfransların keçirilməsində, görkəmli ziyalılarla, elm və mədəniyyət xadimləri ilə görüşlər təşkil edilməsində fəal iştirak edir.

Bəhlul müəllim sevgi dolu bir insandır, üzündən təbəssüm əskik olmur. O, yüksək peşəkar alim və müəllimdir, sevməyi bacaran xeyirxah və mədəni bir insandır, buna görə də hamı onu sevir. Mən ona ustalıqla araşdırdığı dastanlar, bayatılar kimi uzun ömür və böyük yaradıcılıq uğurları arzulayıram. Dünya məktəbində çalışdıqca, onu əhatə edən insanların sevgi və minnətdarlığını duyduqca Bəhlul müəllimin gözəl və mənalı yaşamaq, həyatdan həzz almaq həvəsinin artacağını ümid edirəm. Sizi sevirik və sizinlə qürur duyuruq, əziz Bəhlul müəllim!

***"Bəhlul Abdulla-sevgi dolu alim və pedaqoq"***
***adlı kitabın redaktoru olmuş,***
***(Xəzər Universitetinin nəşriyyatı, 2010) kitabdan***
***(redaktor Nailəxanım İsayeva)***




***"DÜNYA" dərgisinin ilk buraxılışı.***

***Təsisçi və baş redaktor: Nailəxanım İsayeva***

# "Dünya" dərgisi dünyaya gəlir



Əziz oxucular!

Dünya Məktəbi 1998-ci ildə Xəzər Universitetinin qoynunda yarandı, ilk addımlarını Xəzər Universiteti binalarında atdı.

Tezliklə "Xəzər Xəbər" dərgisində "Dünya Məktəbi" guşəsi fəaliyyətə başladı, o guşədə məktəbimizlə bağlı materiallar yer tutdu.

Dünya Məktəbi cari 2014-2015-ci ilində geniş imkanlara malik olan yeni kampusunda yeni addımlar atdı, böyüdü, genişləndi, gücləndi…

Artıq öz dərgimizin, ayrıca mətbuat orqanımızın vaxtı çatdı. Beləliklə, "Dünya" Dərgisi dünyaya gəlir, əziz oxu-

cular, Dünya Məktəbinin əziz şagirdləri, müəllimləri, valideynləri və Dünya Məktəbini sevən hər kəs!

Uşaq bağçası, ibtidai təhsil, orta məktəb, beynəlxalq İB məktəb, tələbə-təcrübə mərkəzi, Azərbaycan, rus və ingilis dillərində tədris kimi çox geniş panoramda fəaliyyət göstərən Dünya Məktəbinin zəngin həyatını öz dərgimizdə əks etdirməyə çalışacağıq. Xəzər Universiteti ilə üzvi bağlılığımız, Azərbaycan cəmiyyəti və dünyada baş verən maraqlı hadisələr də diqqət mərkəzində olacaq.

Şagird və müəllimlərimizin "Dünya" Dərgisində maraqlı yazılarla çıxış edəcəklərinə ümid bəsləyirik. Hamımız üçün daha bir yaradıcılıq meydanı açılır, əziz "Dünya" məktəbi sakinləri!

"DÜNYA" Dərgisi dünyamıza xoş gəlir!

***Nailəxanım İsayeva***
***Baş redaktor***




***Xüsusi buraxılış – 2020 (pandemiya dövrü)***

# Gələcək sizsiniz



Nailəxanım İsayeva
Baş redaktor

Əziz oxucular, məktəblilər, mənim övladlarım! Qəlbimizdəki həyat eşqimiz uşaqlara olan sevgimizdədir, sevgimizin mənasındadır...

Siz, əziz uşaqlar, ömrümüzü parlaq və gözəl gülüşlərinizlə bəzəyirsiniz. Sülh və əmin-amanlıq içində xoşbəxt yaşamağınız dünyamızın gözəlliyidir.

1 İyun - dünyanın əksər ölkələrində 1950-ci ildən qeyd olunan Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür. (International Children's Day) Belə bir günün dünyada qeyd olunması heç də təsadüfi deyil.

Görkəmli amerikalı yazıçı və pedaqoq Nil Postman uşaqları "görməyəcəyimiz bir zamana yolladığımız canlı məktublar" adlandırmışdır. Siz hafizənizdə sabaha bu günün tarixini aparanlarsınız, keçmişlə indini birləşdirərək sabahımızı quranlarsınız.

2019-2020 - ci illər özlüyündə yaddaşınızda həkk olunan, tarixə düşən illərdən biri olacaq. Son aylar ərzində COVİD - 19 - pandemiyanın təsiri ilə bütün dünyada distant

təhsil, onlayn təhsil ideyaları daha da aktuallaşdı. Ölkəmizdə də təhsil sistemi onlayn təhsilə transformasiya olundu.

Əziz uşaqlar, çünki sizi təhlükələrdən qorumağa böyük ehtiyac var. Ailəmizin və nəslimizin, millətimizin və ölkəmizin, ümumilikdə dünyanın gələcəyi sizinlə bağlıdır. DÜNYA məktəbi də öz növbəsində təhsilinizdən geri qalmamaq üçün bütün imkanlarını səfərbər etdi. Müəyyən çətinliklərimiz də oldu, lakin ən mühümü budur ki, dərs ilini uğurlu imtahan nəticələri ilə başa vurdunuz.

Burada məzunlarımızla bağlı məqamları da vurğulamaq istərdik. **Son zəngi** ənənəyə uyğun şəkildə keçirə bilməsək də, həyəcanla dolu ürək sözlərinizi "**inciçiçəyi**" salonunun səhnəsindən eşidə bilməsək də, hər zaman olduğu kimi sizi təntənəli **məzun gecəsindən** gələcək həyatınıza uğurlaya bilməsək də, dualarımız sizinlədir... Yolunuz açıq, üzünüz ağ, gələcəyiniz uğurlarla bol olsun!

Heç bir şey əbədi olmadığı kimi, bu çətinlik də daimi deyil. Bəşəriyyət indiki ağır dövrü adlayacaq, yenə həyat əvvəlki axarına qayıdacaq. Əsas olan budur ki, sizlər sağlam və xoşbəxt yaşayasınız!

Milli kimliyinizi, vətənpərvərlik hisslərinizi və Dünya Məktəbinin sizlərə bəxş etdiyi bilikləri əlinizdə əsas tutaraq ölkəmizin adını hər yerdə ucaldasınız!

Çünki bizi də gələcəyin yaddaşına aparan və yaşadan sizlərsiniz!

Gələcək sizsiniz!

# *İlk qaranquşlar*



Siz Dünya Məktəbinin ilk qaranquşları – ilk məzunlarısınız. Məktəb həyatını, məktəb sevincini yaşamaq, məktəbdə şənlənmək, oxumaq, dincəlmək, gəzmək, belə yaraşıqlı və gözəl olmaq, həm də bu gün məzun olmaq bu təntənəni görmək böyük sevincdir. Əziz həmkarlar, əziz dostlar, inanın ki, bu 11 il müddətində məktəbin müəllimləri, bütün kollektivi tərəfindən onlara çox böyük qayğı göstərilib, onların bütün arzularını yerinə yetirməyə çalışmışıq, nazlarını çəkmişik.

Gün o gün olsun ki, dünyanın hər yerindən gözəl sədalarınız gəlsin, sizinlə fəxr edək.

***DÜNYA Məktəbinin***
***ilk məzun buraxılışı zamanı təbriki***

# Gözəl gələcəyə doğru

Əziz balalarımız, məzunlarımız! Hörmətli valideynlər, sevimli müəllimlər! Bu gün bizim üçün çox əlamətdar gündür. Çox sevdiyimiz, bağrımıza basdığımız balalarımızı son zənglə yola salacağıq.

Məktəb həyatında onların son zəngi çalınacaq. Buradakı həyatla vidalaşıb çox böyük, müstəqil, keşməkeşli bir həyata qovuşacaqlar.

Hörmətli valideynlər, necə ki, siz öz balalarınızın gözəl gələcəyini görmək istəyirsiniz, inanın ki, eləcə də biz istəyirik onların gələcəyi işıqlı, uğurlu olsun! Ümid edirik ki, belə də olacaq! Məktəbimiz, müəllimlərimiz onları hər zaman sevib, nəvaziş, diqqət, qayğı göstərib.






Əziz balalar, sizin bəxtiniz gətirdi ki, məhz bu möhtəşəm məktəbin məzunu oldunuz. Sizdən əvvəlki məzunlar hər zaman məktəbə gəlirlər, bizimlə və müəllimləri ilə görüşürlər, məktəb haqqında çox gözəl fikirlər söyləyirlər. Biz onlarla fəxr edirik.

Gün o gün olsun ki, sizlərlə də fəxr edək, ürəyinizdəki bütün arzularınıza çatasınız!

Sizə uğurlar, gələcəkdə bütün fikirlərinizin, düşüncələrinizin, arzularınızın həyata keçməsini istəyirəm, ailələrinizə əmin-amanlıq, xoşbəxtlik arzulayıram!

Yolunuz açıq olsun, balalarım!

***2014-2015-ci tədris ilinin başa çatması münasibəti ilə çıxışı***

## *Kövrəlirəm*

DÜNYA Məktəbinin əziz məzunları!

Doğma balalar, hər il çox həyəcan keçirirəm ...

Hər zaman da deyirəm ki, mənə söz verməyin, kövrəlirəm. Sizlər üçün sevinirəm, bir tərəfdən də kədərlənirəm, ona görə ki, sizinlə vidalaşırıq.

Sizi hər zaman məktəbdə, bu doğma ocağımızda görmək istəyirik. Sizə cansağlığı, açıq səma, gözəl arzular!

Bizi unutmayın, həmişə məktəbinizə gəlin!

Bu gün sizin üçün məktəbin son zəngi çalınacaq! Valideynləri təbrik edirəm! Övladlarınızın xoş günlərini görmək arzusundayam!

***2015-2016-cı tədris ilinin sona çatması münasibəti ilə məzun gecəsindəki çıxışı***

## Gözümüzün qabağında böyüdülər…

Əziz balalar, siz də xoşbəxtsiniz, biz də! Nə yaxşı ki, siz "Dünya" məktəbinin məzunu oldunuz.

Bu salonda əyləşənlərin hamısı bizim dostlarımız, bizə inanan, bizi sevən insanlardır. Biz də sizi əmin etmək istəyirik ki, hər bir uşaq bizim üçün çox əzizdir. Mənim üçün bu gün çox sevindirici gündür. Sevinirəm ki, balalarımız gözümüzün qabağında böyüdülər, nəhayət, çox uğurla məktəbi bitirdilər.

Mən onlara hər şeyin ən gözəlini arzulayıram. Hər zaman getdikləri yerdə uğur qazansınlar, həyatları sevinclə dolu olsun. Hara getsələr, dünyanın harasında olsalar da, hansı ölkələrə səpələnsələr də, ürəkləri hər zaman Azərbaycanda olsun!

Biz bayaq himni dinlədik, insanı vətənpərvərlik, iftixar hissi bürüyür. Bu hiss sizi tərk etməsin, əziz məzunlar!

Uğur hər zaman sizi əhatə etsin, məktəbinizi, müəllimlərinizi unutmayın! Nə zaman istəsəniz, buyurun, gəlin. Bura hamınızın doğma ocağıdır! Müəllimləriniz sizi böyük sevinclə qarşılayacaqlar, siz onların da balalarısınız. Bunu unutmayın!

Hər zaman xoş xəbərlərinizi eşidib sevinək. Sevinc gətirin bizə, uğurlar, mənim balalarım!

***Məzun gecəsindəki çıxışı -2018***

# Unutmayın haa məni...



Bu ilki 11-ci sinifləri neçə illərdir tanıyıram və bu məzunlarımızı çox sevirəm. Ona görə ki, gözümüzün önündə yetişdilər, böyüdülər. Mən onlara nə arzulaya bilərəm?! Bir ana, bu məktəbdə daima onları görən bir insan kimi balalarımıza uğurlar arzulayıram. Onların həyatı hər zaman işıqlı olsun, valideynləri həmişə yanlarında onlara dəstək olsunlar. Hər zaman öz bacarıq və bilikləri, gözəl işləri ilə bizi sevindirsinlər.

Mənim gözəl balalarım, bilirsiniz ki, çox danışmağı sevmirəm. İstəyirəm ki, sizi yada salanda, haradasa görəndə qürur duyum. Hamınızı çox sevirəm. Mənim çox əziz, doğma balalarımsınız. Bildinizmi?! Yadınızda saxlayın! Məni də unutmayın, xahiş edirəm, unutmayın haa məni...

***Məzunlarla görüş - 2008***

## *Şagirdlərin hamısını sevgi ilə qarşılayıb, sevgi ilə yola salırıq*



Məktəbə yeni gələn uşaqlara arzum budur ki, Dünya Məktəbinin işgüzar, səmimi mühitinə daxil olsunlar. Onlar özlərini doğma hiss etsinlər. Burada məktəbin balaca sakinləri də var, onlar hazırlıq sinfinin uşaqlarıdır. Onları sevgi ilə salamlayıram. Sizə, əziz valideynlər, söz veririk ki, şagirdlərin hamısını sevgi ilə qarşılayıb, sevgi ilə yola salacağıq.

***Bilik günü - 2006***



3 aydır ki, tətildəsiniz və indi doğma məktəbə gəlmisiniz. Biz sizdən ötrü çox darıxmışıq. Mən baxıram ki, hamınız yaxşı-yaxşı dincəlmisiniz, böyümüsünüz. Əminəm ki, yeni qüvvə və həvəslə dərslərinizə başlayacaqsınız, müəllimləriniz də sizi çox sevir.

Yeni tədris ilinin başlanğıcında keçən ilki məzunlarımızı təbrik edirəm. Onlar universitetlərə daxil olublar, buna görə çox sevinirəm. Bu günki açılışımızda onlar da iştirak edirlər. Mən bu uşaqlarla fəxr edirəm.

***Bilik günü - 2007***

***XƏZƏR Universiteti DÜNYA Məktəbinin ilk məzunu olaraq, burada təhsil aldığımız 11 il ərzində Nailə xanım özünün zəhməti, qayğısı ilə həyatımıza çıraq oldu. O, əsl maarifçi-ziyalı, böyük müəllim, həssas qəlbli insan idi. Belə şəxsiyyətlərin adı tarixdə əbədiləşir.***

***Fuad İslamlı***
***məzun - 2009***



***Nailə xanım məktəbdə şagirdlərin sevimlisi idi. Hamımıza qayğıyla, sevgiylə yanaşıb hər zaman əhval-ruhiyyəmiz və dərslərimizlə maraqlanırdı. O, özünün savadı, bacarığı, intellektual səviyyəsi ilə seçilən insan idi və əminəm ki, yüzlərlə şagirdin də qəlbində sonsuza qədər yaşayacaq! Ona olan sevgim və hörmətim əbədidir!***

***Səma Namazlı***
***məzun - 2009***



***Nailə xanım hər zaman uğurlarımızla fəxr edirdi. O, hələ kiçik yaşlarımızdan direktorluqdan daha çox, bir ana kimi bizə həssaslıqla yanaşardı. Nailə xanımı ailəmiz, özümüz hər zaman xoş xatirələrlə yada salmışıq, hər yerdə və ömrümüz boyu da belə qalacaq yaddaşımızda...***

***Ziya Rzalı***
***məzun - 2009***

*** * ***

***Nailə xanım elə gözəl insani keyfiyyətlərə malik idi ki, biz onu görəndə yaxınlaşıb söhbət edər, dərslərimiz haqqında danışar və bir növ dərdləşərdik...***

***Niftalı Qasımlı***
***məzun - 2010***

*** * ***

***Hal-hazırda dünyanın dörd bir bucağında olan məzunların hər birinin həyatına toxunmuşdu. Ən azından öz adımdan deyə bilərəm ki, həyatımın çox önəmli qərarlarının təməlində rəhbərlik etdiyi məktəbin mənə aşıladığı dəyərlər dayanır. Bu özəl insanı yaxından görə bilmək, onun "balam" deyə xitab etdiyi şagirdlərdən biri olmaq qürur hissi yaşadır.***

***Sevinc Hacıyeva***
***məzun – 2013***

# Özünüzə dəyər verin



Qadının ilk nəcib vəzifəsi, missiyası ailə sahibi olmaqdır. Təhsilli, şair, bəstəkar, rəssam, musiqiçi, həkim, müəllim, elm, texnologiya, siyasət, biznes sahələrində uğurla çalışan qadınlarımız var.

Müasir qadın hər yerdə, hər zaman özünü təsdiqləməli və özünə dəyər verməlidir.

Mən bayram münasibəti ilə sizin hamınızı təbrik edirəm, hamınıza cansağlığı, uzun ömür, ailə səadəti, işlərinizdə uğurlar arzulayıram!

***8 mart Beynəlxalq Qadınlar Günü münasibəti ilə məktəbin media şöbəsinə verdiyi müsahibə. 2015-ci il***

# Məktəb: sevinc və qayğılar

**“DÜNYA” Dərgisinin Nailə xanıma ithaf edilən xüsusi buraxılışındakı məqaləsindən Aprel - 2021**

***... Nailə xanım məktəbdə rəhbərliyə başladı. O inzibatçı kimi işləmirdi. Nailə xanım oranı ailə başçısı kimi idarə edirdi. Mənim Dünya Məktəbi ilə sıx əlaqələrim var, orada tanıdığım müəllimlər Nailə xanımın başçılıq etdiyi o kollektivdə çalışdıqlarına görə elə sevinirlər ki... Bilikli müəllimləri irəli çəkir, təcrübəsizləri kənarlaşdırmır, onlara özlərini inkişaf etdirmək üçün şərait yaradır.***

***Nailə xanım özü bir məktəb idi. O, təkcə Dünya Məktəbinin rəhbəri deyildi, işçilərin hamısına nümunə idi.***

***İlham Pirməmmədov***
***Fizika - Riyaziyyat üzrə elmlər doktoru, professor,***
***Azərbaycan Respublikasının Əməkdar Müəllimi,***
***Azərbaycan Texniki Universitetinin***
***Elm və texnika işləri üzrə prorektoru***

# Xoş mühit də qayğıya möhtacdır

Hörmətli həmkarlar, dostlar!

Biz adətən, toplantılar keçirəndə uğurlarımızı yada salır, onlara sevinir və problemlərimizi yada salıb onları həll etməyə çalışırıq. Təəssüf ki, məktəbdə bəzən xoşagəlməz münasibətlər üzə çıxır və bu məni çox narahat edir.

Dünya məktəbindəki fəaliyyətimiz bizim həyatımızdır. Və qarşıya çıxan problemləri yaratdığımız xoş bir mühitdə həll edirik. Bizim böyük uğurlarımızdan biri məhz xoş iş mühiti yarada bilməyimizdir. Biz bu mühiti elə bil ki, göydən düşmüş saymışıq və həmişə belə olacağını qəbul etmişik. Əslində isə hər şey kimi mühit də qayğıya möhtacdır, mühit də qorunmalı və daha maraqlı, daha zəngin olmalıdır.

Məktəb özü təlim-tərbiyə ocağıdır, burada işləyən hər kəs öz danışığına, davranışına, ətrafına diqqət yetirməlidir. Biz hamımız məsuliyyətli və ağır işlə məşğul oluruq, məktəbin nüfuzu, imici, inkişafı bizim işimizdən asılıdır.

Amma ...

Mənə hər tərəfdən çatan məlumatlara və öz müşahidəmə görə məktəbdəki xoş mühitə xələl gətirmək cəhdləri var, məktəbdəki xoş mühitin zəifləyə biləcəyindən narahatçılıq bildirən insanlar var.

20 ildə ilk dəfədir ki, mən məcbur olub bu cür mövzunu xüsusi müzakirə edirəm.

Mən hər zaman, hər yerdə ətrafımda olan işçilərimlə, sağlam, işgüzar kollektivimlə fəxr etmişəm. Bu gün isə narahatam, həyəcan içindəyəm. Burada oturanların arasında hər kəsin haqqı-hüququ var, hər kəsin öz fikrini söyləmək və sağlam şəkildə müzakirəyə qoymaq ixtiyarı var. Burada oturanların hamısı vəzifə sahibidirlər, ancaq hər bir təşkilatda olduğu kimi düzgün vəzifə bölgüsü mühümdür, vəzifə borcumuz var hər birimizin.

İdarənin müdiri iş yerində nə olursa, nə baş verirsə, əmrlər, qərarlar, xoşagəlməz hadisələr, fövqəladə hadisələr və s. ona cavabdehdir. Müdir idarənin bütün işçilərinin işindən xəbərdar olmalıdır. Bir hadisə baş verdikdə və yaxud xoşagəlməz bir iş ortaya çıxarsa, məhz idarənin müdirindən izahat istəyirlər. Ona görə də müəyyən tabeçiliyə riayət olunmalıdır. Yoldaşlıq, həmkarlıq, dostluq kimi xüsusiyyətlər iş nizamını poza bilməz, bizi birləşdirən işdir, işimiz isə müqəddəsdir – uşaqlara, gənclərə tərbiyə və elm veririk.

Son vaxtlar, eşitdiyimə görə, məktəbdə müəyyən adamlar peyda olub, söz aparıb - söz gətirən. Qruplaşmalar, bir-birinin dalınca danışmaq, bir-birinin işini, həyatını müzakirəyə qoymaq, məktəbdə olan hər hansı bir məlumatı kənara çıxartmaq və s. kimi hadisələr qəbuledilməzdir.

Yenə deyirəm, buradakı insanların müəyyən vəzifəsi var, onların fikir söyləməyə, hətta ən inandırıcı, nüfuzlu fikirlərə də etiraz etməyə haqları var, ancaq bu açıq-aydın, etik formada olmalıdır, pərdə arxasında, dedi-qodu şəklində yox.

Bu gündən mən iş yerində xoş mühitə xələl gətirmək istəyəni qəbuledilməz elan edirəm. Ciddi insan belə etməz, belə işlərlə ancaq boş-bekar adam məşğul ola bilər, biz isə boş-bekar deyilik, məsuliyyətimizi dərk etməliyik.

Xoş gözəl işlərə görə sevinirik, xoşagəlməzliklərə qarşı isə ölçü götürüləcəyinə şübhəniz olmasın.

İşlərinizdə uğurlar arzulayıram!

***Dünya Məktəbinin işgüzar mühiti sağlam və şəffaf olduğu üçün cəlbedicidir. Nailə xanım rəhbərlik etdiyi kollektivdə işgüzar mühit, inam, ümid, yüksək əhval-ruhiyyə yaratmışdı.***

***Nailə xanımın rəhbər kimi fəaliyyətinin işığında hər bir zövqlü, əqidəli insan öz payını götürür, mənən kamilləşir, müdrikliyindən dərs alır, təcrübələrə yiyələnirdi. İnsan taleyinin bütün yönləri üçün görməli, götürməli, öyrənməli, faydalanmalı məqamlarla dolu idi Nailə xanımın həyatı...***

# *Əlavələr*

***Bu bölmədə Nailə Xanım İsayevanın həyat tarixçəsi və xatirəsinin əbədiləşdirilməsi üçün həyata keçirilən tədbirlər silsiləsi əks olunmuşdur.***

# 1. Nailə Xanım İsayeva
# (Qısa həyat tarixçəsi)

Nailəxanım Əsgərli 1947-ci il may ayının 29-da Azərbaycan SSR, Quba şəhərində anadan olmuşdur.

Atası İsmayıl Əsgərli maliyyəçi olub, məsul vəzifələrdə çalışmışdır. Anası Bilqeyis xanım Əli Bayramov adına qadınlar klubunun fəal üzvü olmuş, Quba rayonunda qadınlar arasında ictimai iş aparmış, Respublika əhəmiyyətli fərdi təqaüdçü olmuşdur.

Nailə xanım Bakıda məktəb təhsilinə başlamış, paralel olaraq musiqi məktəbində, fortepiano sinfində təhsil almışdır. Orta məktəbin son sinfində Qubada oxumuş, məzun olmuşdur. Quba Musiqi Məktəbində müəyyən fasilələrlə fortepiano sinfi üzrə müəllim vəzifəsində çalışmışdır.

Nailə xanım 1970-ci ildə Hamlet İsayev (İsaxanlı) ilə nişanlanmış və evlənmişdir. Bu evlilkdən dörd qız övlad dünyaya gəlmiş, onlar da Hamlet müəllim və Nailə xanıma dörd nəvə bəxş etmişlər. Nailəxanım 1971-1975-ci illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunda (sonra M.F. Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu`nda) rus dili və ədəbiyyatı ixtisası üzrə ali təhsil almışdır.

Azərbaycan Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutu nəzdində fəaliyyət göstərən Xüsusi Konstruktor Bürosunda çalışmış, sonra orta məktəbdə rus dili və ədəbiyyatı fənni üzrə müəllim işləmişdir.

Hamlet İsaxanlının 1990-cı ilin payız aylarından başlayaraq Bakı şəhərində təsis etdiyi və Nazirlər Kabinetinin 18 mart 1991-ci il tarixli əmri ilə meydana çıxan ilk özəl ali məktəbin - Xəzər Universitetinin qurulmasında Nailəxanım böyük rol oynamış, bu ali məktəb yenidən rəsmi qeydiyyatdan keçərkən Hamlet İsaxanlı ilə yanaşı Xəzər Universitetinin həmtəsisçi olmuşdur.

Nailə xanım Xəzər Universitetində rus dili və ədəbiyyatı fənnini tədris etmiş və təşkilati məsələlər üzrə menecer vəzifəsində çalışmışdır.

O, 1997-ci ildə Xəzər Universiteti Xanımlar Klubunu yaratmış, onun sədri olmuşdur.

Nailə xanım 1998-ci ildə Hamlet İsaxanlı ilə birlikdə Xəzər Universiteti nəzdində “Dünya Məktəbi” adlı eksperimental ibtidai məktəb sinifləri açmış, sonralar məşhur olacaq “Dünya Məktəbi”nin həmtəsisçisi və qurucu direktoru olmuşdur.

Dünya Məktəbi Beynəlxalq IB (International Baccalureate) təşkilatı tərəfindən akkreditasiya edilmiş, IB məktəbi statusu almışdır (2009).

2012-ci ildə Azərbaycan Respublikası Prezidenti "Dünya Məktəbi"ni ən yaxşı məktəblər sırasına daxil etmiş və mükafatlandırmışdır.

Nailə xanım 2011-2021-ci illərdə Dünya Məktəbi Direktorlar Şurasının sədri vəzifəsində işləmişdir.

O, Xəzər Universiteti ilə sıx bağlılığını davam etdirmiş, Universitetin Direktorlar və Qəyyumlar Şurasında humanitar və təşkilati işlər üzrə müşavir vəzifəsində çalışmışdır.

Nailə xanım 2000-ci ildən başlayaraq mahnı yaradıcılığına qədəm qoymuş,

Hamlet İsaxanlının sözlərinə 8 mahnı, o cümlədən Dünya Məktəbinin "Dünyam" adlı mahnı-himnini bəstələmişdir. Mahnılar tanınmış müğənnilər və orkestrlər tərəfindən ifa olunmuşdur.

Nailə xanım xəstələnmiş, daimi müalicə olunmuş, lakin Xəzər Universiteti və Dünya məktəbində fəaliyyətini nəinki zəiflətməmiş, əksinə, universitet və məktəb quruculuğu ilə daha ef fektli, daha enerjili, daha yaxından məşğul olmuşdur.

Nailə xanım Xəzər Universiteti Mədəniyyət Mərkəzini yaratmış (2013), Dünya Məktəbinin "Dünya" dərgisini təsis etmiş, onun baş redaktoru olmuş (2015), "Dünya Ana Məktəbi"ni (Uşaq bağçası və məktəbə hazırlıq məktəbini)

təsis etmiş və qurmuş, Sumqayıtda Dünya Məktəbini qurmuşdur (2016). Son illər xəstəliyi şiddətlənsə də, Xəzər Universiteti Konfrans və İstirahət Mərkəzinin və Gəncə Dünya məktəbinin qurulmasında iştirak etmişdir.

Nailə xanım 2021-ci il aprelin 3-də vəfat etmişdir.

## 2. Nailə Xanım İsayevanın xatirəsinə

2021-ci il aprelin 3-də əvəzedilməz itki ilə üzləşdik.

Ailə və nəslimizin, Dünya Məktəbi və Xəzər Universitetinin, Azərbaycan təhsil ictimaiyyəti və Azərbaycan ziyalılarının sevimlisi, Dünya məktəbi və Xəzər Universitetinin həmtəsisçisi Nailəxanım İsayeva vəfat etdi.

Azərbaycan və dünyanın yaxın və uzaq ölkələrindən, Avropa, Asiya, Amerika, Afrika və Avstraliyadan Nailə xanımı tanıyan görkəmli şəxslər və sadə insanlar dərin hüzn içində mənə başsağlığı verdilər.

Dərdimizə şərik olan hər kəsə minnətdaram. Nailəxanım məlahətli, xeyirxah, qayğıkeş, enerjili gözəl insan, ana, həyat yoldaşı, qohum, nənə, həmkar və dost idi.

Nailəxanım usta pedaqoq, mahir təhsil təşkilatçısı, istedadlı musiqiçi, yüksək zövq sahibi insan kimi tanınırdı.

Nailəxanım onu tanıyanların qəlbində yaşayacaq.

Nailəxanım İsayevanın müasirlərinə məlum olan parlaq surətini, əvəzsiz xidmətlərini gələcək nəsillərə ötürmək, Nailəxanımın əziz xatirəsini əbədiləşdirmək üçün Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurası aşağıdakı tədbirlərin həyata keçirilməsini qərara alır.

1. Qız və qadınların ali təhsil almasına kömək etmək üçün **Nailəxanım Fondu** və onun verəcəyi **Nailəxanım Təqaüdü** təsis edilsin.

Fondun Fondun maliyyə dəstəyi Xəzər Universiteti və Nailəxanımın ailəsi və dostları tərəfindən təmin edilsin.

2. Nailəxanım haqqında dost, həmkar və tanışların yazdığı **xatirələr kitabı** hazırlansın.

3. Nailəxanımın həyat və fəaliyyətini əks etdirən **şəkilli albom-kitab** hazırlansın.

4. Nailəxanımın yazdığı musiqilərin fortepiano, vokal və kamera orkestri üçün **not kitabı** hazırlansın.

5. Nailəxanımın müəllifi olduğu mahnıların tanınmış müğənnilər və qruplar tərəfindən ifası **müsiqi albomu** şəklində hazırlansın, youtube və digər qaynaqlarda nümayiş etdirilsin.

6. Nailəxanımın həyat və fəaliyyətini əks etdirən videomateriallar sistemə salınsın və yeni tərtibatda **filmlər** hazırlansın.

7. Dünya məktəbində **Nailəxanım Muzeyi** yaradılsın.

8. Dünya məktəbində **Nailəxanımın büstü** qoyulsun.

9. Xəzər Universiteti mədəniyyət mərkəzi **Nailəxanım Mədəniyyət Mərkəzi** adlandırılsın; orada büstü qoyulmaqla Nailəxanım güşəsi yaradılsın.

Bu məsələlərin həlli üçün məsul şəxslər, qruplar təyin edilsin və icra mexanizmi yaradılsın.

***Hamlet İsaxanlı,***
***Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının sədri***